## Bakıda metrodan istifadə edənlərin sayı 2,3 dəfə artıb



**Bu ilin yanvar ayında Bakıda metro nəqliyyatının xidmətlərindən istifadə etmiş sərnişinlərin sayı 16,3 faiz artaraq 17,3 milyon nəfər olub.**

Bu barədə Dövlət Statistika Komitəsindən məlumat verilib.

Sərnişinlərin 12,5 faizi metro nəqliyyatından istifadə edib. Ümumilikdə 2023-cü ilin yanvar ayında Azərbaycanda nəqliyyatçılar 138,3 milyon sərnişinə xidmət göstəriblər. Sərnişinlərin 87,0 faizi avtomobil nəqliyyatı, 12,5 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınıb. Ötən il ərzində də metrodan istifadə edən sərnişinlərin sayı ardıcıl olaraq artıb. Belə ki, 2022-ci ildə metro nəqliyyatının xidmətlərindən istifadə etmiş sərnişinlərin sayı 2,3 dəfə artaraq 208,7 milyon nəfər olub.



## Kreml: Krımın Ukraynaya qaytarılması mümkün deyil

**Krımın Ukraynaya qaytarılması mümkün deyil.**

APA-nın Moskva müxbiri xəbər verir ki, bu barədə Kremlin mətbuat katibi Dmitri Peskov bildirib. O, Krım yarımadasının Rusiyanın ayrılmaz hissəsi olduğunu diqqətə çatdırıb.


№ 37 (5798) 2023-cü il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 28 fevral 2023-cü il (çərşənbə axşamı)




## Xarici jurnalistlər Şuşadadırlar

### Xarici jurnalistlər aksiya keçirilən əraziyə gəliblər

**Fevralın 27-də xarici media nümayəndələri Laçın-Xankəndi yolunda keçirilən aksiyanı işıqlandırmaq üçün hadisə yerinə gəliblər.**

Kanada, İspaniya, Türkiyə, ABŞ, Böyük Britaniyadan olan media nümayəndələri aksiya iştirakçılarından müsahibələr alıb, aksiyanın gedişi, keçirilmə səbəbləri barədə məlumat əldə ediblər. Onlar Laçın-Xankəndi yolunda sərbəst hərəkətin təmin edilməsinin şahidi olub, aksiya ərazisindən çəkilişlər ediblər.



## Ərdoğan azərbaycanlı Sərvərlə görüşüb

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan zəlzələ bölgəsi olan Adıyamana səfər edib.**

Trend-in məlumatına görə, R.T.Ərdoğan burada köhnə avtomobili ilə Türkiyəyə yardım daşıyan azərbaycanlı Sərvər Başirli ilə də görüşüb.

Qeyd edək ki, Sərvər Başirli köhnə avtomobili ilə Türkiyədəki zəlzələdən zərər çəkənlərə yardım apararkən özü də bilmədən çəkilən fotosu ilə gündəm olub. Sərvər Başirli bir neçə gün əvvəl zəlzələ bölgəsinə yollanaraq yardımla bağlı işlərdə iştirak edir.

# Lavrov Bakıdadır

### Prezident İlham Əliyev: "Ümidvaram ki, 2023-cü il Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşmasında irəliləyiş ili olacaq"



**Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul edib.**

Azərtac xəbər verir ki, görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:

- Hörmətli Sergey Viktoroviç, sizi yenidən görməyə şadam. Azərbaycana xoş gəlmisiniz. Yaxşı bir ənənədir ki, artıq illər boyu biz sizi qəbul edirik. Bizim nazir də mütəmadi surətdə sizin ölkədə olur. Sizin səfəriniz ötən il fevralın 22-də Moskvada imzalanmış və ölkələrimiz arasında münasibətlərin inkişafında çox əlamətdar və mühüm addım olan müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin birinci ildönümünə həsr edilib.

(səh.2)

## Rusiya Ermənistanı ağır cəzalandıracaq

### Aparılan işlərin nəticəsi olaraq rəsmi Bakının mövqeyi Xankəndidə kifayət qədər güclənib



**Rusiya Müdafiə Nazirliyinin məlumatına görə, ötən həftənin sonu Qarabağdakı erməni əhalisinin nümayəndələri ilə rəsmi Bakı arasında görüş keçirilib.**

Bu görüşün Ruben Vardanyanın Bakının tələbi ilə "vəzifəsindən" çıxarılmasından sonra baş tutması xüsusilə diqqət çəkir. Görünür, təmasların qarşısını almağa çalışan Vardanyanın "vurulması" ilə proses yenidən başlayıb. Rusiya tərəfinin rəsmi məlumatında bildirilib ki, görüşdə Qarabağdakı ermənilərin elektrik və qaz təchizatının bərpasında yaranmış problemlərin aradan qaldırılması razılaşdırılıb.

(səh.3)

## Kompensasiya tələb olunur

### Azərbaycan Ermənistana qarşı dövlətlərarası arbitraj prosesi başladıb



**Azərbaycan fevalın 27-də Enerji Xartiyası Müqaviləsinə uyğun olaraq, Ermənistana qarşı dövlətlərarası arbitraj prosesi başladıb.**

Bu barədə "Şərq"ə Xarici İşlər Nazirliyindən məlumat verilib.

Bildirilib ki, Azərbaycan tərəfi Ermənistana təqdim edilmiş Arbitraj Bildirişində 1991-ci ildən 2020-ci ilə qədər Ermənistanın ərazilərimizin 30 ilə yaxın qanunsuz işğalı dövründə Azərbaycanın enerji resursları üzərində suveren hüquqlarını pozduğuna görə Ermənistandan təzminat və maliyyə kompensasiyası tələb edib.

(səh.2)



## İki-üç ilə müəllimlərin maaşı 1000 manatdan yuxarı olacaq

### Növbəti tədris ilindən şagird davranış qaydalarının bütün məktəblərdə tətbiqi gözlənilir

**"Hazırda 800-dən çox məktəb qəzalıdır. Bunları eyni ildə təmir etmək mümkün deyil".**

Bunu elm və təhsil naziri Emin Əmrullayev bildirib. Onun sözlərinə görə, bu, mərhələli şəkildə aparılır: "Elə məktəblər var ki, həqiqətən də ürəkaçan deyil. Amma eyni zamanda bunu gündə düzəltmək mümkün deyil, yavaş-yavaş düzəldilir.

(səh.6)

## Türkiyənin zəlzələ bölgəsində zərərçəkmiş 23 şagird...

### ...Bakı məktəblərində təhsilə cəlb olunub




**Türkiyənin zəlzələ bölgəsində zərərçəkmiş 23 şagird Bakı məktəblərində təhsilə cəlb olunub.**

"Report"un əldə etdiyi məlumata görə, şagirdlər Bakı Anadolu Liseyinə və Bakı Atatürk Liseyinə yerləşdirilib.

Şagirdlər bir neçə gündür həmin liseylərdə təhsil alırlar.

Məlumatı Türkiyənin Azərbaycandakı səfirliyinin təhsil müşaviri Ali Rıza Altunel "Report"a təsdiqləyib. O bildirib ki, zəlzələ bölgəsindən şagirdlərin Bakıdakı liseylərə təhsilə cəlb edilməsi prosesi davam edəcək.

Bakı Atatürk Liseyindən isə bildirilib ki, zəlzələ bölgəsindən gəlmiş şagirdlər bu liseydə ödənişsiz təhsil alacaqlar.

## Saakaşvilinin yataq xəstəsinə çevrilmək ehtimalı yaranıb



**Gürcüstan İnsan Haqları Müvəkkili (Ombudsman) ofisinin ekspertlər qrupu sabiq Prezident Mixeil Saakaşvilinin səhhətinin daha da pisləşməsi barəsində məlumat yayıb.**

APA-nın Gürcüstan bürosu xəbər verir ki, məlumatda Mixeil Saakaşvilinin yataq xəstəsinə çevrilmək ehtimalının yarandığı bildirilib.

*Qeyd olunub ki, sabiq Prezidentin bədəni aktiv katabolizm mərhələsinə daxil olub və 5-7 kiloqram da itirərsə o yataq xəstəsinə çevriləcək. Qeyd edilib ki, bu 1-2 aya baş verə bilər. Ekspertlər qrupunun Saakaşvilini fevralın 19-da ziyarət etdiyi bildirilib.*



## Heç bir məktəbdə tibbi yoxlama faktı yoxdur

### "Ola bilsin ki, əldə olunan nəticələr poliklinikalara fərdi qaydada müraciət edən uşaqların müayinələrinə uyğun hazırlanıb"

(səh.4)



## Qaz təlaşı artıq arxada qaldı

### Ötən illərlə müqayisədə bu il sərt qış müşahidə edilmədi

(səh.5)



# Lavrov Bakıdadır

## Prezident İlham Əliyev: "Ümidvaram ki, 2023-cü il Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşmasında irəliləyiş ili olacaq"

**Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul edib.**

**Azərtac xəbər verir ki, görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:**

- Hörmətli Sergey Viktoroviç, sizi yenidən görməyə şadam. Azərbaycana xoş gəlmisiniz. Yaxşı bir ənənədir ki, artıq illər boyu biz sizi qəbul edirik. Bizim nazir də mütəmadi surətdə sizin ölkədə olur. Sizin səfəriniz ötən il fevralın 22-də Moskvada imzalanmış və ölkələrimiz arasında münasibətlərin inkişafında çox əlamətdar və mühüm addım olan müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin birinci ildönümünə həsr edilib. Bu Bəyannamə mahiyyət etibarilə bizim münasibətlərimizin ruhunu və xarakterini, əlaqələrimizin formalaşmış müsbət resursunu əks etdirir, gələcək illərdə qarşılıqlı fəaliyyətin yollarını müəyyənləşdirir.

Deməliyəm ki, ötən il münasibətlərimizin çox dinamik xarakteri ilə əlamətdar olub. Prezidentlər səviyyəsində bir neçə görüş olub, həmçinin siz Azərbaycana, həmkarınız isə Rusiyaya səfər edib. Ölkələrimizin hökumətlərinin və parlamentlərinin sədrlərinin qarşılıqlı səfərləri olub, digər rəsmi şəxslərin səfərləri də. Bunlar onu göstərir ki, münasibətlərimiz tamdəyərli şəkildə inkişaf edir, çox mühüm məsələlər həll olunur və düşünürəm ki, biz bu ilə yaxşı təməl ilə qədəm qoyuruq. İlin əvvəlində bizə səfər etməyiniz də bu il qarşılıqlı fəaliyyətimizə xüsusi dinamika verəcək.

Bizi birləşdirən fəaliyyət sahələrini sadalamağa başlasaq, yəqin ki, çox vaxt tələb olunacaq. Bizdə hələlik işlərin o qədər də fəal getmədiyi sahələri saymaq olar. Lakin bu da diqqətimizdən kənarda qalmır. Buna görə ənənəvi qarşılıqlı fəaliyyət sahələrində - siyasi dialoq, energetika, nəqliyyat, ticarət, humanitar əməkdaşlıq və müttəfiqlik qarşılıqlı fəaliyyət səviyyəsinə çatdırmalı olduğumuz sahələrdə də ciddi qarşılıqlı addımlara ümid bəsləyirik.

Onu da məmnuniyyətlə qeyd etmək istərdim ki, ölkələrimizin vətəndaşlarının qarşılıqlı səfərlərinin koronavirusdan əvvəlki dinamikası bərpa olunur. Buna parlaq sübut odur ki, mənə bu gün təqdim edilən informasiyaya görə, hər həftə Rusiya və Azərbaycan aviadaşıyıcıları 135 reys yerinə yetirir. Yəni, mənim fikrimcə, bu rekord göstərici ona dəlalət edir ki, ölkələrimizin vətəndaşları böyük məmnuniyyətlə bir-birini ziyarət edirlər.

Əlbəttə, bu gün biz regional təhlükəsizliklə bağlı məsələlər haqqında da danışacağıq. Ümidvaram ki, 2023-cü il Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşmasında irəliləyiş ili olacaq. Hər halda biz buna ümid edirik. Bu prosesdə fəal iştiraka görə Rusiya hökumətinə və şəxsən sizə təşəkkürümü bildirmək istərdim. Düşünürəm ki, Rusiya bizim dostumuz, müttəfiqimiz və qonşumuz kimi Azərbaycan ilə Ermənistan arasında dövlətlərarası münasibətlərin nizamlanmasına kömək işində xüsusi rola malikdir. Ötən il bu istiqamətdə mühüm səy göstərilib, gələcək sülh müqaviləsinin konseptual xarakterini, məhz iki ölkənin ərazi bütövlüyünün və suverenliyinin qarşılıqlı tanınmasını müəyyən edən sənədlər qəbul olunub. Bu, ötən ilin oktyabrında Praqada və Soçidə qəbul edilmiş sənədlərlə təsdiqlənib. Bu sənədlər sülh müqaviləsinə nail olmaq üçün istifadə edilə bilən təməldir. Hər halda biz bu düşmənçilik səhifəsini tezliklə çevirmək və Cənubi Qafqaza sülhü qaytarmaq üçün Ermənistan tərəfi ilə, bizim dostumuz və qonşumuz Rusiya tərəfi ilə müsbət və konstruktiv iş aparmaq əzmindəyik.

Əlbəttə, bizim münasibətlərimizin və bugünkü danışıqlarımızın gündəliyi mənim haqqında danışdığım istiqamətlərlə məhdudlaşmır. Buna görə gündəliyi ətraflı nəzərdən keçirəcəyik. Əminəm ki, səfərin nəticələri həmişəki kimi müsbət olacaq. Bir daha xoş gəlmisiniz.

***

**Rusiyanın xarici işlər naziri Sergey Lavrov dedi:**

- Çox sağ olun, hörmətli İlham Heydər oğlu. İlk növbədə, Prezident Putinin səmimi salamlarını və dostcasına arzularını çatdırıram. O, bizim müttəfiqlik qarşılıqlı fəaliyyətimizin inkişafına şəxsən xüsusi diqqət yetirir. Sizin dediyiniz kimi, bu günlərdə biz ötən il Sizin Rusiya Federasiyasına səfəriniz zamanı müvafiq Bəyannamənin imzalanmasının ildönümünü qeyd edirik. Şübhəsiz ki, bu Bəyannamə qarşılıqlı fəaliyyətin əldə olunmuş səviyyəsini təsbit etdi və onun dərinləşməsi, keyfiyyətcə yeni səviyyəyə çıxarılması yollarını müəyyən etdi. Sizin xatırlatdığınız kimi, praktiki əməkdaşlıq, həqiqətən, bütün istiqamətlər üzrə çox səmərəli və intensiv inkişaf edir. Buraya həm Sizin Rusiya Federasiyasının Prezidenti ilə mütəmadi təmaslarınız, iki ölkənin hökumətlərinin sədrləri və nazirlər arasında görüşlər daxildir.

Biz, həmkarım - Azərbaycanın xarici işlər naziri Ceyhun Əziz oğlu Bayramovla daim əyani və indi deyildiyi kimi, onlayn təmaslarda oluruq. Həm də şübhəsiz ki, bizim iqtisadi əməkdaşlığımızın göstəricisi olan əmtəə dövriyyəsi də rekord səviyyələrə çatır və bu, son hədd deyil. Çünki Siz Prezident Putinlə təkcə ikitərəfli deyil, həm də regional və hətta qlobal xarakter daşıyacaq bir neçə meqalayihənin hazırlanmasını müzakirə etmisiniz. Bu layihələrə sizin və bizim bir çox tərəfdaşlarımız maraq göstərir. Bu da Rusiya və Azərbaycanın liderlər kimi iştirakı ilə bu regionda qarşılıqlı fəaliyyətin necə perspektivli olduğunu göstərir.

Əlbəttə, biz mədəni əlaqələrin inkişafında maraqlıyıq. Bizim əlamətdar günlərimiz az deyil. Ötən il diplomatik münasibətlərin 30 illiyini, bu il müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin birinci ildönümünü qeyd etdik. Yazda biz Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyini qeyd edəcəyik. Bizdə azərbaycanlı dostlarımızla birgə silsilə tədbirlər planlaşdırılır. Əminəm ki, həmin tədbirlər vətəndaşlarımızın bir-birinə, tarixə və bu ortaq tariximizin indiyə qədər davam edən, ölkələrimiz arasında dostluq, ailəvi və qohumluq əlaqələrini saxlamağa kömək edən səhifələrinə qarşılıqlı marağı nümayiş etdirəcək.

Sizinlə tamamilə razıyam ki, vətəndaşlarımızın səfərlərinin bərpa olunması göstəriciləri bu vəziyyəti, humanitar və təhsil sahələrində əlaqələri inkişaf etdirməyə çalışmağımızı bir daha vurğulayır. Biz rus dilinin dəstəklənməsinə, bunu arzu edən Azərbaycan vətəndaşlarının həm özlərinin rus dilində danışmaları və işdə bu dildən istifadə etmələri, həm də öz uşaqlarına bu imkanı vermələri üçün hər cür şəraitin yaradılmasına şəxsən Sizin və hökumətinizin diqqətini çox yüksək qiymətləndiririk.

Hörmətli İlham Heydər oğlu, Sizin vurğuladığınız kimi, heç şübhəsiz, regional təhlükəsizlik bizim həm ikitərəfli, həm də çoxtərəfli münasibətlərimizdə olduqca aktual mövzu kimi qalır. Bizim beynəlxalq həmkarlarımızın çoxu, o cümlədən bu regiondan uzaqda yerləşənlər Azərbaycan ilə Ermənistan arasında münasibətlərin nizamlanması yolunda irəliləyişə şərait yaratmağa böyük maraq göstərirlər. Prezident Putinin dəfələrlə dediyi kimi, biz vəziyyətin sabitləşməsi, bu regionda yerləşən bütün ölkələrin normal, qarşılıqlı hörmət və qarşılıqlı fayda əsasında öz ölkələrinin və xalqlarının mənafeləri naminə əməkdaşlıq etmək imkanları olması üçün şərait yaradılmasına yönəlmiş bütün səyləri alqışlayırıq.

Məni qəbul etdiyinizə görə Sizə səmimi-qəlbdən təşəkkür edirəm və əminəm ki, bu səfər Prezident Putin ilə Sizin müəyyənləşdirdiyiniz istiqamətlər üzrə irəliləməyə kömək edəcək.

***

**Prezident İlham Əliyev:** Çox sağ olun, Sergey Viktoroviç. Mən də Sizdən xahiş etmək istərdim ki, mənim salamlarımı və ən xoş arzularımı Vladimir Vladimiroviç Putinə çatdırasınız, həmçinin Heydər Əlirza oğlu Əliyevin xatirəsinə bu cür xoş münasibətə görə təşəkkürümü bildirəsiniz. Biz bunu çox yüksək qiymətləndiririk. Sağ olun.

# Kompensasiya tələb olunur

## Azərbaycan Ermənistana qarşı dövlətlərarası arbitraj prosesi başladıb



**Azərbaycan fevalın 27-də Enerji Xartiyası Müqaviləsinə uyğun olaraq, Ermənistana qarşı dövlətlərarası arbitraj prosesi başladıb.**

**Bu barədə "Şərq"ə Xarici İşlər Nazirliyindən məlumat verilib.**

Bildirilib ki, Azərbaycan tərəfi Ermənistana təqdim edilmiş Arbitraj Bildirişində 1991-ci ildən 2020-ci ilə qədər Ermənistanın ərazilərimizin 30 ilə yaxın qanunsuz işğalı dövründə Azərbaycanın enerji resursları üzərində suveren hüquqlarını pozduğuna görə Ermənistandan təzminat və maliyyə kompensasiyası tələb edib.

Ermənistan hərbi güc yolu ilə Qarabağ bölgəsindəki enerji resurslarından istifadədən Azərbaycanı məhrum etməklə, Azərbaycanın enerji ehtiyatlarını öz xeyrinə istismar etməklə, habelə Azərbaycanın öz milli enerji siyasətinə və ətraf mühitlə bağlı öhdəliklərinə uyğun olaraq enerji ehtiyatlarını daha da inkişaf etdirmək imkanından məhrum etməklə Enerji Xartiyası Müqaviləsinin çoxsaylı müddəalarını və beynəlxalq hüququn fundamental prinsiplərini pozub.

Azərbaycanın Enerji Xartiyası Müqaviləsinə uyğun olaraq Ermənistana qarşı dövlətlərarası iddiasının əsasını Qarabağ bölgəsinin zəngin hidroenergetika ehtiyatlarının Ermənistan tərəfindən qanunsuz istismarı təşkil edir.

Qarabağ bölgəsində Azərbaycanın daxili su ehtiyatlarının 25 faizinin cəmlənməsi, buranı su elektrik enerjisi istehsalı üçün optimal məkana çevirib.

Ermənistanın qeyri-qanuni şəkildə istismar etdiyi hidroenergetika obyektlərinin ən böyüyü Tərtərçayın üzərində inşa edilmiş Sərsəng su anbarında yerləşən Tərtər su elektrik stansiyasıdır (Tərtər SES). Ermənistan Azərbaycanın suveren ərazilərinə hərbi təcavüzünün tərkib hissəsi kimi, 1994-cü ildə Sərsəng su anbarını və Tərtər SES-i ələ keçirib.

Ermənistan həmçinin işğal zamanı Azərbaycanın suveren ərazisində ən azı 37 əlavə icazəsiz su elektrik qurğuları tikib.

Tərtər SES-in istehsal etdiyi elektrik enerjisi ilə yanaşı, bu əlavə icazəsiz qurğuların hasilatı açıq şəkildə Ermənistana "ixrac mənbəyi" kimi müəyyən edilmişdi. Ermənistan Azərbaycana məxsus su elektrik enerjisi ehtiyatlarının qeyri-qanuni istismarını asanlaşdırmaq üçün keçmiş işğal olunmuş ərazilərdən Ermənistana elektrik enerjisinin paylanmasının "vahid sistemi"ni yaratmış, "gündəlik elektrik enerjisi istehsalının həcmini Ermənistan ərazisindən tənzimləyib" və bölgənin mövcud qurğularını istismar etmək üçün enerji şirkətlərinə saxta "lisenziyalar" verib.

İşğal zamanı Ermənistan eyni zamanda İrəvan istilik elektrik stansiyasında istifadə məqsədilə, Azərbaycanın Tərtər rayonunun Çardaqlı kömür mədənini qanunsuz istismar edib.

Nəhayət, Ermənistan Azərbaycan ərazisində əlavə enerji infrastrukturu qurmaqla Azərbaycanın hidroenergetika və kömür ehtiyatlarının qeyri-qanuni istismarına şərait yaradıb. Məsələn, Ermənistan işğal olunmuş ərazilərlə Ermənistan arasında "birbaşa həyat xətti" kimi təsvir edilən və Ermənistanın təhlükəsizliyində "əhəmiyyətli rol" oynayacaq yeni kömür-nəqliyyat magistralının tikintisini maliyyələşdirib.

Ermənistan həmçinin Azərbaycanda Yevlaxı Naxçıvan ilə birləşdirən təbii qaz kəməri kimi mövcud enerji tranzit qurğularını sıradan çıxarıb. Beləliklə, işğal nəticəsində Naxçıvana qaz təchizatı kəsilib.

Bu arbitraj işinin məqsədi, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış suveren ərazisində Ermənistan tərəfindən enerji ehtiyatlarının 30 ilə yaxın bir dövr ərzində qeyri-qanuni istismarı və qəsb edilməsinə cavab olaraq haqq-ədaləti və Ermənistanın təzminat ödəməsini təmin etməkdir.

# Obalı bacısı oğlunun tutulmasından danışdı

## "Bundan bizim əleyhimizə təzyiq kimi istifadə edə bilməyəcəklər"

**Güney Azərbaycanın Ərdəbil şəhərində yaşayan Məhəmməd Yusifi həbs edilib. Azərbaycanlının yaxınlarının məlumatına görə, fevralın 20-də səhər saat 10-da Ərdəbil şəhərinin polis əməkdaşları onun yaşadığı mənzilə gediblər. O, evdə olmadığı üçün anasından onun polisə müraciət etməsini istəyiblər.**

Saat 11-də evə gələn Məhəmməd Yusifi saat 11:30-da polis bölməsinə gedib. 12:30 radələrində Ərdəbil məhkəməsinə aparılan Məhəmməd Yusifi saat 15 radələrində bir polkovnik və bir əsgərin müşayiəti ilə avtobusla Tehrana göndərilib. Məhəmməd Yusifi gecə saat 23:30-da Tehranın Evin zindanına aparıldığı barədə anasına məlumat verib. Fevralın 21-də səhər saat 08:00 radələrində yenidən anasına zəng edən Yusifi artıq Evin zindanına çatdıqlarını bildirib. Onun hakimiyyətə qarşı təbliğatda ittiham edildiyi bildirilir.

Qeyd edək ki, Məhəmməd Yusifi "GünazTV"-nin təsisçisi, Amerikada mühacirətdə yaşayan siyasi fəal Əhməd Obalının bacısı oğlu, "GünazTV"-nin Bakı ofisinin rəhbəri Araz Obalının qardaşıdır.

Məhəmməd Yusifinin həbsinin "GünazTV" və Əhməd Obalının fəaliyyəti ilə bağlı olduğu və bundan Obalıya qarşı təzyiq vasitəsi kimi istifadə edildiyi ehtimal olunur.

**Bacısı oğlunun həqiqətən də həbs edildiyini deyən Güney Azərbaycanın milli fəalı, Güney Azərbaycan Televiziyasının (GünazTV) rəhbəri Əhməd Obalı "Şərq"ə bildirib ki, o, Ərdəbildə həbs edilsə də, gecə ailəsindən xəbərsiz Tehrandakı Evin zindanına göndərilib:**

"Bacım oğlu yolda olanda ailəsi ilə bir neçə kəlmə danışa bilib. Ancaq zindana göndərildikdən sonra əlaqə qura bilmirik. Hətta onun vəkil tutmasına belə icazə verilmir. Həbsin səbəbinə gəldikdə isə bizə



qarşı təzyiq üçün olduğunu düşünürəm. Amma hələlik həbsin səbəbini dəqiq bilmirik. Sadəcə məlumat yayılıb ki, guya o rejimin əleyhinə təbliğat aparıb. Lakin Məhəmməd bu işlərdə çox mühafizəkardır. Onun həbsinin etiraz ilə əlaqədar olduğuna inanmıram. Ümumiyyətlə, bizi təhdid etmək üçün ailə üzvlərimizin həbs edilməsi keçmişdə də olub. Ancaq bundan bizim əleyhimizə təzyiq kimi istifadə edə bilməyəcəklər".

Ə.Obalı qeyd edib ki, hüquqlarının əllərindən alınmasına etiraz olaraq fəaliyyətlərini davam etdirəcəklər: "İranda Azərbaycan türklərinin bütün hüquqları pozulur. Onlar bizi təzyiqlə yolumuzdan uzaqlaşdırmaq istəyirsə, bu, baş tutmayacaq. Onlar mənim qohumlarımın hamısını həbs etsələr belə, işimizə davam etməliyik. Əgər rejim mübarizəni sonlandırmağımızı istəyirsə, millətimizin haqlarını geri qaytarmalıdır. Bizim onlardan tələbimiz isə milli kimliyimizi dağıtmamalarıdır. Biz Azərbaycan türkləri olaraq hüquqlarımızı tələb edəcəyik. Onların belə addım atması, bizi fəaliyyətimizi daha da artırmağa məcbur edir".

**Nihat Müzəffər**

# Tələb qüvvəsindədir

## Vardanyanın "vəzifəsindən" çıxarılması heç nəyi dəyişməyib

**"Vardanyanın qondarma "vəzifəsindən" uzaqlaşdırılmasından sonra bir sual xüsusilə önə çıxır: Laçın yolundakı aksiya başa çatacaqmı?". Bu sözləri "Şərq"ə açıqlamasında siyasi şərhçi Asif Nərimanlı deyib. Ekspert bildirib ki, İrəvanda və separatçılar arasında belə fikirlər var:**



"Nikol Paşinyanın Vardanyanın "gedişindən" sonra Putinə, ardınca BMT baş katibi Quttereşə zəng etməsi, Laçın yolundakı aksiyanı müzakirə etməsi də bununla bağlıdır. Ermənilən Rubeni "vəzifədən" çıxarmaqla "Bakının tələbi icra edildi, Laçın yolunda aksiya bitməlidir" rəyini yaratmağa çalışır. Halbuki aksiyanın əsas tələbi başqadır: Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi suveren ərazilərimizdə faydalı qazıntı yataqlarının qanunsuz istismarı dayandırılmalı və həmin ərazidə Azərbaycanın daimi monitorinq və təftiş aparmaq imkanı təmin edilməlidir. Bu tələblə başlayan aksiyada daha sonra əlavə tələblər də gündəmə gəldi. Laçın yolundan qeyri-humanitar məqsədlər üçün istifadə dayandırılmalı, yolda Azərbaycanın nəzarət mexanizmlərinin yaradılması təmin edilməlidir. Ruben Vardanyan Azərbaycanın suveren ərazisini tərk etməlidir. Məlum olan tələblərdən heç biri icra olunmayıb, mədənlərə giriş imkanı yaradılmayıb. Laçın dəhlizində nəzarət mexanizmləri qurulmayıb. Vardanyan "vəzifəsindən" çıxarılsa da, Azərbaycan ərazisində yaşamağa və fəaliyyət göstərməyə davam edir. Laçın yolundakı aksiyanın dayanması bu tələblər icra edildikdən sonra müzakirə mövzusu ola bilər".

**İsmayıl**

# Rusiya Ermənistanı ağır cəzalandıracaq

## Aparılan işlərin nəticəsi olaraq rəsmi Bakının mövqeyi Xankəndidə kifayət qədər güclənib



## Azərbaycan vətəndaşları sayılan ermənilərlə danışıqlar çoxdan gedir

**Rusiya Müdafiə Nazirliyinin məlumatına görə, ötən həftənin sonu Qarabağdakı erməni əhalisinin nümayəndələri ilə rəsmi Bakı arasında görüş keçirilib. Bu görüşün Ruben Vardanyanın Bakının tələbi ilə "vəzifəsindən" çıxarılmasından sonra baş tutması xüsusilə diqqət çəkir. Görünür, təmasların qarşısını almağa çalışan Vardanyanın "vurulması" ilə proses yenidən başlayıb.**

Rusiya tərəfinin rəsmi məlumatında bildirilib ki, görüşdə Qarabağdakı ermənilərin elektrik və qaz təchizatının bərpasında yaranmış problemlərin aradan qaldırılması razılaşdırılıb. Ekspertlərin fikrincə, əgər Rusiya rəsmi qurumlarının iddia etdiyi kimi belə təmaslar reallaşsa belə erməni tərəfinin ortaya atdığı "Bakı-Xankəndi" formatından söhbət gedə bilməz. Rəsmi Bakı Qarabağdakı hansısa separtçı ilə deyil, ancaq Azərbaycan vətəndaşı sayılacaq mülki ermənilərlə əlaqə qurar.

**Rusiya Müdafiə Nazirliyinin yaydığı məlumatı "Şərq"ə təhlil edən siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev bildirib ki, Baş nazir Nikol Paşinyanın yürütdüyü siyasət Ermənistanı çox çətin vəziyyətə salıb. Professorun sözlərinə görə, eyni vaxtda həm ABŞ və Fransanı, həm də Rusiya və İranı razı salmaq qeyri-mümkündür:** "Hazırda Ermənistan hökumətinin yeritdiyi siyasət budur. Antoqonist mövqedə duran dövlətləri bir araya gətirmək imkansızdır. Rusiyanın siyasəti bəllidir. Moskva hesab edir ki, Qafqazın əldən çıxması Rusiyanın faciəsidir. Lakin Ukrayna ilə bir ildir müharibə aparan Rusiya ikinci cəbhəni da açmaq fikrində deyil. Bu, Kreml üçün ciddi fəlakət olar. Rusiya problemi başqa yolla çözmək məqsədilə Ruben Vardanyanı Qarabağa göndərdi və onun əliylə Paşinyan hökumətini devirəcəyinə ümid bəslədi. Ancaq Kremlin Vardanyanla bağlı arzuları reallaşmadı. Separatçı Arutyunyan Rusiya üçün kiçik və önəmsiz fiqurdur. Hazırda separatçıların arasında ən güclü fiqur Vitali Balasanyandır. O da oyundan kənar vəziyyətdədir. Ermənistan hökumətinin, yəni Nikol Paşinyanın Qarabağla bağlı düşüncəsi az-çox bəllidir. Ara-sıra separatçıların könlünü alan açıqlamalar verilsə də, baş nazirin Qarabağdan birdəfəlik qurtulmaq niyyəti ortadadır. O da məlumdur ki, Ermənistanda Azərbaycanda doğulan ermənilərə cinayət işi açılıb. Rusiya da bunun fərqindədir. Ən əsası isə hazırda Qarabağda yaşayan ermənilər də bu reallığın fərqindədir. Rusiya Müdafiə Nazirliyinin məlumatı həm Ermənistana, həm də daxildəki ermənilərə açıq mesajdır. Rusiyanın 49 rus vətəndaşını Qarabağdan çıxarması da bu prosesin tərkib hissəsidir. Görünən odur ki, Moskva Azərbaycanın əliylə Ermənistanı cəzalandırmağa çalışır. Rusiya XİN başçısı Sergey Lavrovun Azərbaycana səfərində də bu məsələlərin müzakirə olunacağı şübhəsizdir. Ehtimal etmək olar ki, Azərbaycan rəhbərliyi Lavrovla Xankəndi məsələsini ciddi müzakirə edəcək. Nəzərə alaq ki, Azərbaycan-Ermənistan-Rusiya formatı ilə yanaşı, Azərbaycan-Ermənistan-Avropa İttifaqı və ABŞ platformaları da mövcuddur. Kreml üçtərəfli sazişləri önə çəkərək Bakı-İrəvan-Moskva formatının ən optimal variant olduğunu isbatlamağa çalışır".

**C.Nuriyevin qənaətincə, hadisələrin gedişi Rusiyanın Ermənistanı cəzalandıracağını göstərir:** "Təbii ki, söhbət bizə dəstəkdən, mövqelərimizin müdafiə olunmasından getmir. Amma ən azından atılacaq hansısa addımda Rusiya bizə mane olmayacaq, problem yaratmayacaq. "Xalq diplomatiyası" adı ilə Xankəndidə yaşayan ermənilərlə müəyyən təmaslar olub. Azərbaycan vətəndaşları sayılan ermənilərlə danışıqlar çoxdan gedir. Bu faktlar erməni blogerlər tərəfindən də bir neçə dəfə gündəmə gətirilib. Azərbaycan diplomatiyası bəhrəsini verməkdədir. Aparılan işlərin nəticəsi olaraq rəsmi Bakının mövqeyi Xankəndidə kifayət qədər güclənib. Rusiya və Ermənistan bu siyasətlə hesablaşmaq məcburiyyətindədir. Çünki Moskvanın Ruben Vardanyana etimadı özünü doğrultmadı. Qarabağda qondarma "liderə", erməniləri kiminsə təmsil etməsinə də ehtiyac yoxdur. Vətəndaşlıq almaq üçün minlərlə erməni Azərbaycan hökumətinə müraciət edib. Bir müddət sonra mülki ermənilər özləri separatçıları, silahlı quldurları qovacaqlar".

**İsmayıl Qocayev**



# Əhməd İsmayılov gənclər təşkilatlarının rəhbərləri ilə görüşüb

## "Gənclərin media savadlılığının artırılması üçün maarifləndirmə işləri vacibdir"

**Fevralın 27-də Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılov gənclər təşkilatlarının rəhbər və nümayəndələri ilə görüşüb.**

MEDİA-dan bildiriblər ki, görüş zamanı Əhməd İsmayılov gənclər arasında media savadlılığının artırılması üçün maarifləndirmə işlərinin genişləndirilməsinin vacibliyindən və bu sahədə Agentlik tərəfindən həyata keçirilən tədbirlərdən danışıb. O, gənclər təşkilatlarının media subyektləri və nümayəndələri ilə effektiv əlaqələrinin qurulması, ictimaiyyəti məlumatlandırma mexanizmlərinin təkmilləşdirilməsindən bəhs edib.

"Gənclər təşkilatlarında media ilə işin effektiv təşkili üzrə bacarıqların artırılması" layihəsi çərçivəsində keçirilən görüşdə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi üçün birgə layihələrin icrasının önəm daşıdığı vurğulanıb.

Görüşdə layihənin inkişaf perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb, layihənin gedişatı, keçiriləcək təlimlər müzakirə olunub.

*Qeyd edək ki, layihə çərçivəsində gənclər təşkilatlarında fəaliyyət göstərən PR menecerlər üçün təlim-görüşlərin təşkil olunması nəzərdə tutulur.*

# İsrail və Fələstin arasında buzlar əriyir

## Bu iki ölkə arasında sülhün əldə edilməsi həm Təl-Əviv, həm də Vaşinqton üçün olduqca vacibdir



**İsrail və Fələstin nümayəndə heyətləri İordaniyanın Aqaba şəhərində bir araya gəliblər. Görüşdə ABŞ, İordaniya, Misir nümayəndələri də iştirak edib. Tərəflər keçirilən danışıqlarda etimadı bərpa etmək və yaranan problemləri dialoq yolu ilə həll etmək üçün tədbirlər görməyə razılaşıblar.**

Ekspertlərə görə, İsrail ilə Fələstin arasında keçirilən Aqaba görüşü indiki məqamda mühümdür. Tərəflər uzun illər idi ki, bu səviyyədə bir araya gəlmirdi. Eyni zamanda tərəflər heç bir halda ortaq məxrəcə də gələ bilmirdi. Lakin Aqaba görüşündə uzun illər sonra ilk dəfə danışıqlarda etimadın bərpası yaranan problemləri dialoq yolu ilə həll etmək üçün tədbirlərin görülməsinə razılıq verildi. Görüşdə ABŞ İordaniya və Misir nümayəndələrinin iştirak etməsi isə onu deməyə əsas verir ki, bu tipli görüşlər bundan sonra da davam edəcək. Hələlik yekun sülhdən danışmaq üçün tez olsa da verilən qərarlar sülhə yönəlikdir və effekti olacağı gözlənilir.



**Politoloq Turan Rzayev "Şərq"ə açıqlamasında bildirib ki, indiki məqamda İsrail ilə Fələstin arasında sülhün əldə edilməsi həm Təl-Əviv, həm də Vaşinqton üçün olduqca vacibdir. Analitikə görə, İran hazırda nüvə silahı əldə etməyə çox yaxındır və bu fakt öz növbəsində İsrail-İran toqquşmasının qaçılmaz olduğunu deməyə əsas verir:** "Prinsip etibarilə uzun müddətdir İran-İsrail arasında kölgə müharibə gedir, ancaq tərəflər hələ də açıq toqquşmaya keçməyiblər. Lakin Təl-Əviv hazırda buna hazırlaşır və ehtimal İran-İsrail müharibəsi fonunda Tehranın arxadan zərbə vurmasını istəmir. Rəsmi Tehran indiki məqamda İsrailə Livan və Fələstin üzərindən zərbələr vura bilər. Vaşinqton və Təl-Əviv bunun qarşısını almaq üçün Fələstinlə müvəqqəti sülhün əldə edilməsində qərarlıdır. Bunun effektiv olması üçün Misir və İordaniyanın da vasitəçiliyini irəli sürürlər. Aydın məsələdir ki, İranın nüvə silahını əldə edə bilməsi Yaxın Şərqdə kartların yenidən paylanmasına səbəb olacaq. Məsələ ondadır ki, ABŞ regionda təkcə tərəfdaşı olan İsrailin nüvə silahına malik olmasını istəyir. Bu silahın İranda olması Vaşinqtonun özü üçün də əlavə risklər deməkdir. Digər tərəfdən, ABŞ yaxşı bilir ki, İranın nüvə silahına sahib olması regionda nüvə yarışı başladacaq. Məsələn, Səudiyyə Ərəbistanı, Türkiyə və Misir kimi ölkələr də nüvə silahı əldə etmək istəyəcək. Lakin Vaşinqtonun ehtimal İsrail-İran müharibəsində Təl-Əvivə birbaşa dəstək verəcəyi, müharibədə iştirak edib-etməyəcəyi hələlik bəlli deyil. Ümumiyyətlə, bu məsələdə Vaşinqtonun daxilində ciddi fikir ayrılıqları var. Digər tərəfdən, ABŞ-ni Rusiya və Çin kimi böyük problemlər narahat edir. Mümkündür ki, ABŞ belə bir müharibə olacağı təqdirdə, birbaşa olmasa da, dolayı yolla İsrailə dəstək verəcək. Məsələn, 1967-ci ildə Ərəb-İsrail müharibəsi zamanı Vaşinqton müharibədə birbaşa iştirak etməsə də, Təl-Əvivə lazımi silah və maliyyə yardımı etmişdi".

*Ekspertin fikrincə, İsrail və Fələstin nümayəndə heyətlərinin görüşü zamanı Azərbaycan Prezidentinin köməkçisi Şahmar Mövsümov və kənd təsərrüfatı naziri İnam Kərimovun rəhbərlik etdiyi nümayəndə heyətinin İsraildə səfərdə olması diqqət çəkir:* "Bakı proseslərin mərkəzində olmasa da kənar oyunçu kimi iştirak edir. Azərbaycan İsrail və Fələstin arasında uğurlu balans siyasəti aparır və hər iki tərəflə də isti münasibətləri var. Yəni Aqaba görüşündə İordaniya, ABŞ, Misir nümayəndələrinin iştirak etməsi onların birbaşa aktorlar olduğunu göstərir. Bakı isə proseslərin ikili görüşlər qanadını təşkil edir. Prezidentin köməkçisi Şahmar Mövsümov ilə yanaşı, kənd təsərrüfatı naziri İnam Kərimovun da İsraildə olması Bakının proseslərdəki yerini kamuflyaj etməsidir. Bunu həm də Tehranın ehtimal narazılığını bloklamağa hesablanan addım kimi qiymətləndirmək olar".

**İsmayıl**

# Malatya şəhərində yenidən güclü zəlzələ olub

## Təkanlar ciddi dağıntılara, ölüm və yaralanmaya yol açıb



**Türkiyənin Malatya şəhərində yenidən 5,6 bal gücündə zəlzələ olub. Malatyanın Yeşilyurt rayonunda qeydə alınan zəlzələ ciddi dağıntılara, ölüm və yaralanmaya yol açıb, dərhal axtarış-xilasetmə briqadaları ərazidə fəaliyyətə başlayıb. İlkin təxminlərə görə, 29 bina dağılıb. Türkiyənin milli təhsil naziri Mahmut Özer onlarla şəxsin dağıntılar altından çıxarıldığını qeyd edib.**

AFAD rəhbəri Yunus Sezer isə 1 nəfərin öldüyünü vurğulayıb. Türkiyənin vitse-prezidenti Fuat Oktay vətəndaşları zədəli binalardan uzaq durmağa çağırıb. Türkiyənin Fövqəladə Halların İdarə Olunması Agentliyinin nümayəndəsi Orxan Tatar deyib ki, Türkiyədə 10 mindən çox afterşok qeydə alınıb. Onun sözlərinə görə, son üç həftədə 10 min 282 afterşok yaşanıb.

Malatyadakı zəlzələdən sonra dağıntılar altından 32 nəfər xilas edilib, 110 nəfər yaralanıb. AFAD sədri Yunus Sezer məlumat verib ki, Yeşilyurt rayonunda baş verən 5,6 bal gücündəki zəlzələdən sonra dağıntılar altından 32 nəfər xilas edilib: "Hazırda 2 binada axtarış-xilasetmə işləri davam etdirilir".

### "115 min nəfər dağıntılar altından sağ çıxarılıb"

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Adıyamanda keçirdiyi brifinqdə bildirib ki, 115 min nəfər dağıntılar altından sağ çıxarılıb. Onun sözlərinə görə, zəlzələ bölgəsində 115 min nəfər dağıntılar altından sağ çıxarılıb: "Çadır kəndlərində 4600 çadırda 14 minə yaxın vətəndaşımız yaşayır. Eyni zamanda 44 mindən çox vətəndaşımıza isə öz evlərinə yaxın ərazilərdə yaşamaq üçün çadırlar təşkil etmişik".

### Türkiyədə yardım göstərilən vətəndaş sayı 1 milyona yaxınlaşıb

Ərdoğan deyib ki, vətəndaşlar üçün kirayə yardımları 2000 lirədən 3000 lirəyə qaldırılıb: "Zəlzələdən zərər görən hər bir kəsə köçməklərinə görə 15 min lirəlik yardım edəcəyik. Həmçinin zəlzələdə vəfat edən vətəndaşlarımızın yaxınlarına 100 min lirə yardım edirik. Fəlakətdən zərər görən vətəndaşlarımıza isə 10 min lirə yardım veririk. Ölkə üzrə yardım göstərilərək ödəmə edilən vətəndaş sayı 1 milyona yaxınlaşıb".

### Türkiyənin zəlzələ bölgəsində 309 min mənzilin inşası planlaşdırılır

Türkiyə lideri bildirib ki, zəlzələ bölgəsində tikinti prosesi zamanı hündürmərtəbəli binaların inşasına və sıxlığa yol verilməyəcək: "Zəlzələ bölgəsində 309 min mənzilin inşası planlaşdırılır. Mart və aprel aylarında söz verdiyimiz mənzillərdən 234 mininin tikintisinə başlanılacaq. Mart ayında Adıyamanda tikintisinə başlanılan mənzil sayı 30 min olaraq nəzərdə tutulub. Artıq inşasına başlanılan mənzil sayı isə 14 500-ə çatıb". Türkiyə dövlət başçısı zəlzələ bölgəsində 185 345 binanın ya tamamilə uçduğunu, ya da ciddi zərər gördüyünü qeyd edib.

### "Türkiyədə uzun müddət afterşokların davam etməsini müşahidə edəcəyik"

Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli deyib ki, aktivlik müşahidə olunması təbiidir. Onun sözlərinə görə, müəyyən periodda güclü zəlzələlərdən sonra litosferdə aktivlik müşahidə olunması təbiidir: "Güclü zəlzələlərdən sonra yeraltı təkanlarda aktivliyin müşahidə edilməsi istisna hal hesab edilmir. Piltələrin hərəkəti, baş verən güclü zəlzələlərdən sonra piltələr arasında olan dərin qırılmalarda enerji paylanması zəlzələ ocaqlarında oyanmanı bir qədər tezləşdirir. Türkiyədə minlərlə afterşokun qeydə alınması da bunun nəticəsidir. Afterşokların uzun müddət davam etməsini müşahidə edəcəyik. Çünki baş vermiş güclü zəlzələ litosferdəki layların hamısında aktivlik əmələ gətirib".

### "Anadolu qırılması Azərbaycandan keçmədiyinə görə..."

Qurban Yetirmişli qeyd edib ki, güclü zəlzələdən sonra enerji paylanması ocaqlardakı gərginliyi tezləşdirir: "Təhlükəli zona adlandırılan Şərqi-Anadolu piltəsində olan qırılma böyük ərazini əhatə edir və onun ətrafında tektonik qırılmalar var ki, güclü zəlzələ onlarda da canlanma əmələ gətirib. Enerji ayrılmaları davam edir və bu da ocaqlarda zəlzələ olmasını tezləşdirir".

Mərkəzin baş direktoru deyib ki, Anadolu qırılması Azərbaycandan keçmədiyinə görə bunun bizdəki aktiv tektonik qırılmalarla əlaqəsi yoxdur: "Geoloji quruluş cəhətdən region tamamilə başqadır. Azərbaycanın öz seysmotektonikasında zəlzələ ocaqları çoxdur. Bu günlərdə də yeraltı təkanlar oldu, amma hiss edilmir. Yaxın günlər üçün Azərbaycanda katastrofik zəlzələlərin olma ehtimalı yoxdur".

**İsmayıl**

# Çin Rusiyaya ölümcül silahlar ixrac etməyi nəzərdən keçirir

## Bu, Ukraynanın hərb meydanındakı nisbəti Kremlin xeyrinə dəyişdirə bilər




### Qərb-Kiyev ittifaqına qarşı Moskva-Tehran-Pekin oxu formalaşdırılır

**Ukrayna Prezidenti Volodimir Zelenski Çinin Rusiya ilə müharibəni bitirmək üçün təklif etdiyi 12 bənddən ibarət sülh sazişinə münasibət bildirib. Zelesnki deyib ki, o, irəli sürülən təklifləri Çinin sülh planı deyil, mövcud vəziyyətlə bağlı düşüncələr hesab edir:**

"Bunun sülh planı olduğunu düşünmürəm. Mənə elə gəlir ki, Çin sadəcə öz fikirlərini bildirib. Yaxşı ki, Çin Ukraynadakı müharibədən danışmağa başlayıb. Digər sual isə sözlərin arxasında nəyin dayanmasıdır". Qeyd edək ki, Pekin bundan əvvəl 12 bəndlik sülh təklifi ilə çıxış edib. Lakin Kiyev Çini Rusiyanın müttəfiqi saydığı üçün bu təklifə birmənalı yanaşmayıb. Qərb ölkələri də fərqli mülahizələr səsləndiriblər.

**Siyasi şərhçi Aqşin Kərimov deyib ki, Avroatlantik məkanın təhlükəsizliyinin Ukraynadakı müharibə səbəbindən ağır təhdid altına düşməsi Çini da cuşa gətirib.** Analitik qeyd edib ki, Çinin Ukraynadakı münaqişədə siyasi və praktiki əhəmiyyətini artırmaq üçün aktivləri bir əldə cəmləməsi cəhdi NATO-nun qaydalarına əsaslanan nizamla uyğunluq təşkil etmir: "Münhen Təhlükəsizlik Konfransından sonra Çin amilinin münaqişədəki iştirak səviyyəsinin koordinatlarını müəyyənləşdirməsi bir sıra dərin mətləblərin açarını təqdim edir. Çin Rusiyaya ölümcül silahlar ixrac etməyi ciddi şəkildə nəzərdən keçirir. Bu, Ukraynanın hərb meydanındakı nisbəti Kremlin xeyrinə dəyişdirə bilər. Qərb üçün ən təhlükəli tərəf Çin dronlarının və ballistik raketlərinin Rusiyaya tədarük edilməsi riskləridir. Beləcə, NATO-nun Ukraynanı, İranın Rusiyanı silahlarla təmin etməsinin davamını Çin gətirir. Yəni Qərb-Kiyev ittifaqına qarşı Moskva-Tehran-Pekin oxu formalaşdırılır. Çin münaqişənin nəticələrinin iqtisadi yekunlarında monopoliya yaratmaq üçün oyunçuluğunu gücləndirməyi zərurət hesab edir, yəni Pekin Moskvanı və Tehranı mühafizə etməyi deyil, onların vasitəsilə özünəməxsus qaydalar qurmağı hədəfləyir. Çin məqsədlərinə çatmaq, yəni münaqişənin mümkün həllindən sonra yaranan iqtisadi mənzərələrdən maksimal qazanclar əldə etmək üçün 12 bəndlik sülh planını da hazırlayıb".

A.Kərimova görə, belə bir planın ərsəyə gəlməsi Çinin Rusiyaya silah verməsi barədə həyəcanlı məlumatlar, bəyanatlar fonunda bir məsələni dəqiqləşdirir: "Çin ölümcül silahlarla Qərbi qorxudur, məqsədi NATO-nu Ukrayna meydanından geri çəkib. Prosesləri öz sülh planına uyğun tərtib etmək və yarana biləcək nəticələri Rusiya ilə bölməkdir. Hərçənd ki, Çin Xarici İşlər Nazirliyinin açıqladığı 12 bəndlik sülh planının normativləri zahiri cəhətdən qulağa xoş səslənir. Bəndlərin mahiyyəti NATO-nun genişlənmə siyasətinin ziddinədir və Alyansa xəbərdarlıq tonundadır. Çünki təhlükəsizliyə dair Çin baxışı ilə Qərbin mövqeləri bir-birindən uzaqdır. Çinin təklif etdiyi sülh təklifləri uzaqlaşmış mövqeləri bir-birinə yaxınlaşdıra biləcək potensiala malik deyil. Pekin özü bunu yaxşı bilir, ona görə də güc vasitəsilə, yəni Rusiyaya silah ixracını stimullaşdırmaqla Qərbin geri çəkilməsinə çalışıb, özünü üstün mövqelərə çıxarmaq istəyir. Qərb Pekinin Rusiya-Ukrayna münaqişəsində vasitəçi kimi çıxış etmək üçün beynəlxalq etimadının olmadığını əsas gətirərək Çinin sülh planını böyük ölçüdə kənara tullayır.

Beləliklə, Çin Ukraynadakı müharibəni yekunlaşdıra biləcək etibara malik olmadığından onun sülh planı münaqişədə Rusiyanın tərəfini tutan tezislərin inkişaf etdirilməsi kimi şərh oluna bilər. Çin baş verəcəkləri hesablayır, bilir ki, onun Ukrayna müharibəsində Rusiyanın xeyrinə aşkar manevrlər etməsi Pekini sanksiya zərbəsinə tuş gətirə bilər".

**A.Kərimov vurğulayıb ki, belə olan təqdirdə, sanksiyalardan yayınmaq üçün ən münbit ölkə Belarusdur:** "Buna görədir ki, Belarus Prezidenti Aleksandr Lukaşenkonun Çinə səfəri gözlənilir. Lukaşenko Kremlin təlimatları ilə Rusiya və Çinə sanksiyalardan yayınmaqda kömək etmək vəzifələrini icra etmək məsuliyyətini daşıyır. Çinin sülh tezisləri Ukraynadakı müharibənin danışıqlar yolu ilə nizamlanması üçün ciddi plan deyil və əsasən, NATO tərəfindən rədd edilməyə davam edəcək. Çünki NATO düşünə bilər ki, Çinin sülh planı Rusiya əvəzinə, Ukrayna və Qərbin təqsirkar olduğunu təlqin edir və Rusiyanın müharibəni təşkil etməsini dəstəkləyir. Çin yaranan qeyri-müəyyənlikdən Avropa bazarlarına çıxışı saxlamaq səyləri üçün istifadə edəcək və daha böyük gəlir əldə etmək üçün çalışacaq".

**İsmayıl**

# Heç bir məktəbdə tibbi yoxlama faktı yoxdur

## "Ola bilsin ki, əldə olunan nəticələr poliklinikalara fərdi qaydada müraciət edən uşaqların müayinələrinə uyğun hazırlanıb"

**"Uşaqlar arasında ən çox elə xəstəliklər üstünlük təşkil edir ki, bəlkə də birbaşa valideyn nəzarəti ilə qismən də olsa qarşısını almaq olar". Bu barədə Bakı Baş Sağlamlıq İdarəsinin mətbuat katibi Elnur Hidayətoğlu deyib. E.Hidayətoğlunun sözlərinə görə, ötən il Bakı şəhəri üzrə uşaqların icbari dispanserizasiyası nəticəsində ən çox göz, həzm, tənəffüs və sümük-əzələ sistemi xəstəliklərinə rast gəlinib.**



"Halbuki dispanserizasiya prosesi, əslində, tam şəffaf və əsasən də məktəblərin özündə həyata keçirilməlidir"

Bakı Baş Səhiyyə Mərkəzinin hazırladığı hesabata görə, 2022-ci il üzrə uşaqların icbari dispanserizasiyası nəticəsində aşkar olunmuş xəstəliklər arasında göz xəstəlikləri 25 faiz (əsasən yaxındangörmə), həzm sistemi 20 faiz (əsasən stomatoloji), tənəffüs sistemi 13.5 faiz (əsasən lor), sümük-əzələ sistemi 12.3 faiz (əsasən qamətin pozulması) xəstəlikləri üstünlük təşkil edib. Məlumat üçün bildirək ki, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tapşırığına uyğun olaraq, 2022-ci ilin fevral ayından etibarən təhsil müəssisələrində uşaqların icbari dispanserizasiyası prosesi gücləndirilib. Bu məqsədlə uşaqlara ambulator tibbi xidmət göstərən uşaq poliklinikaları tərəfindən tərtib olunmuş müayinə planına uyğun olaraq, həkim briqadaları yenidən təşkil olunub və uşaqlar arasında aparılan müalicə-profilaktika tədbirləri sürətləndirilib. İlkin tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi, xəstəliklərin erkən aşkar edilməsi və müvafiq sağlamlaşdırma tədbirlərinin aparılması məqsədilə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) rəhbərliyinin tapşırığına əsasən təhsil müəssisələri və o cümlədən valideynlər arasında sanitar-maarif işinin təşkili istiqamətində ciddi tədbirlər həyata keçirilib.

Qeyd edək ki, valideynlər məktəblərdə real müayinələrin aparılmadığını, statistikanın yalnız formal kağızdan ibarət olduğunu iddia edirlər.

**Təhsil eksperti Elçin Əfəndi isə "Şərq"ə açıqlamasında deyib ki, "Uşaqların icbari dispanserizasiyası haqqında" Qanuna əsasən, hər il şagirdlər icbari tibbi müayinədən keçirilməli və onların müayinə nəticələri dispanser vərəqində qeyd edilməli, o qeydlər isə məktəblərə göndərilməlidir:** "Sözün açığı, məktəblərdə uşaqların icbari dispanserizasiyası ilə rastlaşmamışam. Ümumiyyətlə, məktəblilərin tibbi yoxlanılması faktı yoxdur. Ola bilsin ki, əldə olunan nəticələr poliklinikalara fərdi qaydada müraciət edən uşaqların müayinələrinə uyğun hazırlanıb. Halbuki dispanserizasiya prosesi, əslində tam şəffaf və əsasən də məktəblərin özündə həyata keçirilməlidir".

Ekspertin fikrincə, səhər saatlarında məktəbə daxil olan bütün şagirdlər ilkin tibbi yoxlamadan keçirilməli, qızdırmalı uşaqlar dərsə buraxılmamalı, müalicə üçün evə göndərilməlidir: "Çünki infeksiya daşıyıcısı olan bir uşağın dərsdə oturması kütləvi şəkildə yoluxma ilə nəticələnə bilər. Bunun məsuliyyəti iki müvafiq qurumun Təhsil Nazirliyi ilə Səhiyyə Nazirliyinin üzərindədir. Çünki məktəbdə kütləvi yoluxma dərsin gedişatına mənfi təsir göstərir. Əslində, uşaqların sağlamlığının öyrənilməsi üçün icbari dispanserizasiya düzgün metoddur, yəni yönləndirmə düzgündür. Ancaq yaxşı olar ki, şəffaflıq olsun, uşaqlar düzgün yoxlanılsın. Əgər prosedur düzgün və şəffaf aparılsa, hər bir valideyn də uşağının sağlamlığı barədə ətraflı məlumat əldə etmiş olar".

*Qeyd edək ki, uşaqların dispanserizasiyası - uşaqların sağlamlığının qorunması, normal fiziki inkişafının təmin edilməsi və xəstəliyin ilkin mərhələdə aşkar edilməsi məqsədilə kompleks profilaktika, diaqnostika və müalicə-sağlamlaşdırıcı tədbirlərdən ibarət olan aktiv dinamik müşahidə sistemidir. "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramının məqsədi isə uşaqlara göstərilən tibbi xidmətlərin keyfiyyətini yüksəltməklə, onların arasında xəstələnmə, əlilliyin və ölüm səviyyəsinin azaldılmasından ibarətdir.*

**Şəymən**

**"Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycanla sülh müqaviləsinin imzalanmasının onun iqtidarının "intihar müqaviləsi" olacağını yaxşı başa düşür. Heç bir ağlı başında olan baş nazir siyasi intihar etməz".**




*Bunu "Şərq"ə açıqlamasında tanınmış jurnalist, siyasi şərhçi Fuad Abbasov deyib. O bildirib ki, Qarabağ problemi Ermənistan üçün iqtidara yüksələn pilləkən olub:* "Robert Koçaryan və Serj Sarkisyan bu pilləkənlə Ermənistan iqtidarının ən yüksək səviyyəsinə gəliblər, tərəfdarlarını toplayıblar.

# Azərbaycanın bir yolu qalıb

## Çox yaxın vaxtda antiterror əməliyyatı gerçəkləşə bilər

Fuad Abbasov: "30 illik təcrübəyə əsasən, ermənilərin başa düşdüyü dil, sadəcə, silah gücüdür"

Ermənistan gah avropalı müşahidəçilər çağırır, gah Avropa İnsan Haqları Məhkəməsinə müraciət ünvanlayır, gah da ki, BMT-nin məhkəməsində havadarları vasitəsilə qərarlar qəbul etdirir. Bütün bunların hamısı Qarabağda status-kvonu bərpa etməyə hesablanıb. Azərbaycan tərəfi mövcud vəziyyəti heç bir şəkildə qəbul etməyəcək. Münhen Təhlükəsizlik Konfransındakı nitqində də Prezident İlham Əliyev Azərbaycanda bütün azlıqların eyni hüquq və üstünlüklərdən faydalandığını vurğuladı.

Azərbaycan tərəfi çox yaxın vaxt ərzində antiterror əməliyyatı apararaq, sülhə qarşı gələn ünsürlərlə silah gücündə danışmalıdır. 30 illik təcrübəyə əsasən, ermənilərin başa düşdüyü dil, sadəcə, silah gücüdür".

Qeyd edək ki, rəsmi İrəvan Azərbaycan-Ermənistan şərti sərhədində nəzarət-buraxılış məntəqələrinin qurulması ilə bağlı təklifi məqbul hesab etməyib.

Xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, Ermənistan danışıqlardan yayınır və verilən təklifə heç bir izah vermədən imtina edir: "Son iki ildə Laçın yolu ətrafında çox böyük qanun pozuntusu halları baş verib. Yoldan qanunsuz istifadələr var idi. Bununla bağlı dəfələrlə beynəlxalq təşkilatlara məlumat verilib, ölkəmizdə fəaliyyət göstərən diplomatik korpus nümayəndələri üçün brifinqlər keçirilib. Burada müxtəlif istiqamətlər üzrə yüzlərlə fakt var idi.

Təbii ki, bu da Azərbaycan cəmiyyətinin haqlı narazılığına səbəb olmuşdu. Eyni zamanda dekabrda başlamış etirazların səbəbi də məhz Laçın yolundan qanunsuz məqsədlərlə istifadə ilə bağlı idi".

**Aygün Tahir**

# İrəvan əsl niyyətini ortaya qoyur

## Ermənistan nəzarət-keçid məntəqəsinin yaranmasından imtina edir

**Prezident İlham Əliyevin Münhendə gündəmə gətirdiyi mühüm məsələlərdən biri də "Zəngəzur dəhlizinin, həm də Laçın yolunun giriş-çıxışında nəzarət-buraxılış postlarının qoyulması barədə təklif" idi. Dövlət başçısı bununla bağlı İrəvandan cavab gözlədiyini bildirmişdi. Prezident qeyd etmişdi ki, Ermənistan və Azərbaycanın öz keçid məntəqələrini yaratması yaxşı olardı:**



"Ermənistanla sərhəddə, Laçında və Zəngəzur dəhlizinin hər iki tərəfində olmalıdır. Bunun zərurətindən əvvəl də danışmışdıq". Ölkə rəhbəri bu mövqeyin həm Avropada, həm də Amerikada məntiqli qəbul edildiyinə diqqət çəkmişdi. Dövlət başçısı vurğulamışdı ki, nəzarət-buraxılış məntəqələrini ikitərəfli qaydada Ermənistan-Azərbaycan sərhədində yaratmaq təklifini müzakirə etmək üçün onlara bir qədər vaxt lazımdır: "Çünki biz sərhədlərin delimitasiyası haqqında danışırıqsa, nəzarət-buraxılış məntəqələri olmadan bu, mümkün deyil. Biz kommunikasiyaların açılması haqqında danışırıqsa, əlbəttə ki, həm Zəngəzur dəhlizinin hər iki başında, eyni zamanda Laçın rayonu ilə Ermənistan arasındakı sərhəddə nəzarət-buraxılış məntəqələri yaradılmalıdır". Lakin bir neçə gün sonra xarici işlər naziri Ceyhun Bayramov bildirdi ki, Ermənistan tərəfi dövlət başçısı İlham Əliyevin gündəmə gətirdiyi təklifi qəbul etməkdən boyun qaçırıb. Şübhəsiz, bu imtina İrəvanın əsl niyyətini bir daha ortaya qoyur. Çünki Ermənistan sərhəd məntəqələrinin mövcudluğunu özünün terror siyasətinə maneə kimi görür. Ermənistanın Azərbaycanla şərti sərhəddə nəzarət-buraxılış məntəqəsinin yaradılmasına "yox" deməsinin başlıca səbəbi erməni separatçılarının bölgədəki fəaliyyəti ilə bağlıdır. İrəvanın hakim siyasiləri yaxşı dərk edirlər ki, nəzərdə tutulan məsələnin reallaşması separatçılığı əngəlləyəcək, təxribatçı planlara zərbə vuracaq. İrəvanı qorxudan da məhz budur.

Ermənistan regionda sülhü və təhlükəsizliyi təmin edən, əməkdaşlığa imkanlar açan bütün təşəbbüslərə mane olmağa çalışır

**Millət vəkili, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı "Şərq"ə açıqlamasında bildirib ki, 2020-ci ilin 10 noyabrında bağlanmış, altında Baş nazir Nikol Paşinyanın imzası olan üçtərəfli bəyannamənin müddəaları İrəvan tərəfindən məqsədyönlü şəkildə yerinə yetirilmir. Deputatın sözlərinə görə, Ermənistan müxtəlif formalarda üçtərəfli sazişdə əksini tapmış müddəaların həyata keçməsinə maneçilik törədir:** "Ermənistan sözdə sülh sazişinin bağlanmasının "tərəfdarı" kimi çıxış etsə də, əməldə buna mane olur. Əsassız bəhanələrlə manevr etməyə çalışır. İrəvan tərəfi bununla nə vaxtsa özü üçün əlverişli şəraitin yaranacağını düşünür. Daha üstün mövqe əldə edəcəyini zənn edərək Azərbaycanla bərabər statusda danışıqlar aparmaq niyyəti güdür. Digər yandan, içində Paşinyan olmaqla erməni cəmiyyəti Azərbaycana, Türkiyəyə, bütövlükdə türk xalqına düşmənçilik və nifrət düşüncəsiylə yaşayan bir etnosdur. Ermənilər Azərbaycana ərazi iddialarından hələ də imtina etməyiblər. Ermənistan tərəfi mövcud vəziyyəti "müvəqqəti" görür və bunu ümumi prosesdə bir fasilə kimi dəyərləndirir. Baxmayaraq ki, 44 günlük müharibədə erməni mifi darmadağın edildi, amma yenə də gecə-gündüz "Böyük Ermənistan" iddiaları ilə yaşayırlar. Bunun da səbəbini ermənilərin zəhərlənmiş düşüncəsində axtarmaq lazımdır. Ermənistanın dövlət siyasəti erməni xalqının xarakterinə, düşüncə sisteminə uyğunlaşıb. Bütün bunlar ermənilərə imkan vermir ki, onlar Azərbaycan və Türkiyə ilə normal münasibətlər qursun. Ermənistanın bu günu və gələcəyi iki dövlətdən - Azərbaycan və Türkiyədən asılıdır. İrəvan hökuməti bu iki ölkə ilə normal münasibət qurmağı bacarsa, ərazi iddialarından əl çəksə, özünü beynəlxalq hüquq normalarına söykənən qonşu ölkə kimi aparsa, Ermənistanın bütün problemləri, çətinlikləri aradan qalxacaq. Ancaq bunu etmək əvəzinə ya Fransanın, ya İranın, ya da Rusiyanın yanında yer alırlar. Özlərini bilə-bilə çıxılmaz "Bermud üçbucağına" salırlar".

**F.Ağamalı vurğulayıb ki, Ermənistan regionda sülhü və təhlükəsizliyi təmin edən, əməkdaşlığa imkanlar açan bütün təşəbbüslərə mane olmağa çalışır:** "İrəvanın mane olduğu təşəbbüslərdən biri də Münhendə dövlət başçısı İlham Əliyevin gündəmə gətirdiyi təklif idi. Həmin təklif Azərbaycan və Ermənistanın öz sərhədləri daxilində nəzarət-keçid məntəqəsi yaranmasını nəzərdə tuturdu. Ermənistan isə bundan imtina edir. Halbuki İrəvan hökuməti bunun gələcəkdə müzakirə oluna biləcəyini, indi buna hazır olmadıqlarını deyə bilərdi. Ancaq erməni tərəfi bunu da etmədi. Bu da onların dövlət siyasətindən irəli gəlir. Bütün bunlara baxmayaraq, Azərbaycan tərəfi Laçın yolunda, Ermənistanla sərhəddə özünün nəzarət-keçid məntəqəsini yaratmalı, orada sərhəd və gömrük xidmətlərinin, polisimizin nəzarəti təmin edilməlidir".

**İsmayıl Qocayev**

*“İrəvana yol görünür”*

# Qərbi azərbaycanlılar öz yurdlarına qayıtmalıdır

## Xalqımıza qarşı törədilmiş bu haqsızlıq, ədalətsizlik aradan götürülməlidir

**Qərbi Azərbaycan İcması indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz yurdlarına geri dönüşünü əks etdirən ”Qayıdış Konsepsiyası” üzərində işini davam etdirir. Müşahidə Şurasının təsdiqindən sonra Konsepsiya İcmanın əsas sənədlərindən birinə çevrilib.**



Konsepsiyada son 200 ildə Qərbi Azərbaycandan qovulmuş soydaşlarımızın tarixi torpaqlarına qayıtması prosesində İcmanın fəaliyyətinin ümumi prinsipləri öz əksini tapıb. Vurğulanıb ki, ilkin mərhələdə azərbaycanlıların bütün Qərbi Azərbaycan boyu köçürülməsi xoşagəlməz nəticələr verə bilər. Ona görə də əsas hədəf insanların ilkin mərhələdə daha təhlükəsiz bölgələrə köçürülməsi olacaq. Yəni söhbət Qərbi Zəngəzur, Dərələyəz, Göyçə mahalı və Qaraqoyunlu dərəsindən gedir. Soydaşlarımızın ilkin mərhələdə həmin ərazilərə köçürülməsi daha təhlükəsiz, zəmanətli və təminatlı olacaq. İcma rəhbərliyi hesab edir ki, Qərbi Azərbaycana qayıdış üçün həm beynəlxalq zəmanət, həm də Ermənistan dövlətinin təminatı lazımdır. Sonuncu deportasiya zamanı o ərazilərdən qovulmuş soydaşlarımızın əksəriyyətinin bölgələrdəki evi, əmlakı, mülki əvəzi ödənilmədən əllərindən alınıb. Ona görə Qərbi Azərbaycana Qayıdış Konsepsiyasında həmin soydaşlarımızın mülkiyyət hüququnun bərpa olunması məsələsi qoyulub. Eyni zamanda onların torpaq sahələrinin icmalara qaytarılması məsələsi konsepsiyada öz əksini tapıb. Soydaşlarımızın köçürüləcəyi ərazilərin toponimlərinin geri qaytarılması, Azərbaycan adlarının bərpa olunması məsələsi də Qayıdış Konsepsiyasında yer alıb. Məlumat üçün bildirək ki, Azərbaycan xalqı ötən əsrdə dörd dəfə deportasiyaya məruz qalıb. Ardıcıl olaraq, 1905-ci, 1918-20-ci, 1948-53-cü, 1988-1992-ci illərdə azərbaycanlılar məcburi şəkildə öz yurdlarından köçürülüb. Proses zamanı qoca, uşaq və qadınlar da daxil olmaqla 140 min insan erməni vəhşiliyinin qurbanı olub. Təkcə 1988-1992-ci illərin deportasiyasında məcburi köçürülən azərbaycanlıların sayı 300 minə yaxın olub. Statistik və arxiv sənədlərində təsdiq olunduğuna görə, bu proses nəticəsində indiki Ermənistan ərazisində yaşayan bir milyon beş yüz mindən çox azərbaycanlı tarixi torpaqlarından qovulub. Azərbaycanlılar qovulduqdan sonra bu ərazilərdəki Azərbaycan izləri ermənilər tərəfindən tamamilə silinib, məhv edilib. Toponimlərimiz dəyişdirilib, abidələrimiz saxtalaşdırılıb. 940 yaşayış məntəqəsindən 698-nin adı Ermənistan Ali Sovetinin qərarı ilə dəyişdirilərək erməni adları ilə əvəz olunub. Ancaq ermənilər bununla da kifayətlənməyib. Ümumilikdə, indiki Ermənistan ərazisində yaşamış azərbaycanlıların deportasiya tarixi 1820-1988-ci illik bir dövrü əhatə edir. Azərbaycanlıların indiki Ermənistan ərazisindəki tarixi torpaqlarından qaçqınlıq məhrumiyyətləri nəinki Azərbaycanda, eləcə də Ermənistanın özündə və başqa ölkələrdə çap olunmuş kitablarda da kifayət qədər əksini tapıb. Bir məqamı da qeyd edək ki, Qərbi Azərbaycandan deportasiya olunan soydaşlarımızın siyahıya alınma prosesi uğurla davam etdirilir. Proses 1988-91-ci illərdə öz torpaqlarından çıxarılanlar üzərindən həyata keçirilir. Çünki xronologiya baxımından ən sonuncu deportasiya (1988-91-ci illər) ən yaxın zamandır. Bu tarixdə deportasiya olunan soydaşlarımızın əksəriyyəti həyatdadır və əllərində pasportları, Ermənistan SSR-də təhsil aldıqlarına dair, eləcə də mülkiyyətləri ilə bağlı sənədlər var.

### “Qərbi Azərbaycana qayıdış məsələsi bizim ümummilli məsələmiz və ümummilli vəzifəmizdir”

Qərbi Azərbaycan İcması da mütəmadi bəyanat yaymaqda, görülən işlərlə bağlı məlumat verməkdədir. Bununla yanaşı, İcma tərəfindən dəstək çağırışları da gündəmə gəlməkdədir. Məsələn, Qərbi Azərbaycan İcmasının sədri, millət vəkili Əziz Ələkbərli bir neçə gün öncə deyib ki, qayıdış 60 milyona yaxın azərbaycanlının məsələsidir. Onun sözlərinə görə, dekabrın 24-də Prezident İlham Əliyevin Qərbi Azərbaycan İcmasının bir sıra nümayəndələri ilə görüşü zamanı tarixi fikirləri həyatımızın yeni bir mərhələsinə qədəm qoyduğunu göstərdi: ”Prezident bu zaman icma qarşısında bir sıra məsələlər qoyub. Həmin çıxışdan sonra son 200 ildə tarixi torpaqlarımızdan qovulan soydaşlarımızın öz ata-baba yurdlarına qayıdışı prosesinə yeni start verildi. Ölkə Prezidentinin qarşımıza qoyduğu digər məsələlərdən biri də Qayıdış Konsepsiyasının hazırlanması idi ki, artıq həmin konsepsiya ictimaiyyətə təqdim olunub. Bu baxımdan Azərbaycanda olan bütün qurumlar bu məsələyə öz töhfəsini verməlidir. Çünki bu, hər birimizi düşündürən ümummilli məsələdir”. İcma sədri bildirib ki, soydaşlarımızın öz yurdlarına qayıtması məsələsində ölkədəki qurumlarla yanaşı, ölkə xaricindəki Azərbaycanla bağlı bütün təşkilatlar öz dəstəyini verməlidir: ”Həmçinin vətəndaş cəmiyyətinin üzərinə də çox böyük işlər düşür. Bu gün QHT-yə Dövlət Dəstəyi Agentliyi ilə birgə keçirilən görüşümüzdə də əməkdaşlığımızın müxtəlif aspektlərini müzakirə edəcəyik və gələcəkdə bu istiqamətdə atacağımız addımlarla bağlı qərarlar qəbul edəcəyik. Bu yaxınlarda QHT Agentliyi Qərbi Azərbaycana Qayıdış Konsepsiyasına İctimai Dəstəklə bağlı qrant müsabiqəsi elan edib. Belə hesab edirik ki, həmin müsabiqənin həyata keçirilməsi bu sahədə atılmış mühüm addımlardan biri olacaq”. Onu bildirək ki, İcma keçən həftə yaydığı bəyanatda Ermənistan hökumətinin də Qərbi Azərbaycan İcması ilə görüşünü tələb edib.

**İndiki Ermənistanın Amasiya rayonunun Göllü kəndində anadan olmuş millət vəkili, Qərbi Azərbaycana dönüşlə bağlı yaradılmış Elm Komissiyasının sədri, professor Hikmət Babaoğlu ”Şərq”ə açıqlamasında deyib ki, ”Qayıdış Konsepsiya”sında çox mühüm məsələlər öz əksini tapıb. Deputat bildirib ki, Konsepsiyaya daxil edilmiş məqamlar tamamilə beynəlxalq hüquq normalarına uyğun olan, ədalətə söykənən müddəalardır:** ”Stalin dövründə repressiyaya məruz qalmış bütün xalqlar - Dağıstan xalqları, Krım və Ahısqa türkləri daha sonra bəraət aldılar. Müvafiq beynəlxalq təşkilatların qərarına uyğun olaraq öz tarixi vətənlərinə qayıtmaq hüququ əldə etdilər. Çox təəssüf ki, 1948-53-cü illərdə məhz SSRİ Nazirlər Kabinetinin qərarı ilə deportasiyaya məruz qalmış Qərbi azərbaycanlılar hələ də öz torpaqlarına qayıda bilməyiblər. Digər yandan, 1988-91-ci illərdə Qərbi Azərbaycanda yaşayan bütün azərbaycanlılar ermənilər tərəfindən zorla qovuldular. Nəticədə Ermənistan monoetnik dövlətə çevrildi. Ona görə də bu gün Qərbi Azərbaycana qayıdış məsələsi bizim ümummilli məsələmiz və ümummilli vəzifəmizdir. Vətən müharibəsindən sonra yaranmış yeni reallıqda Azərbaycanın bütün ictimai institutlarının, dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının, ziyalılarının, diplomatlarının, qısacası, hamının səyi bir məqsədə yönəlməlidir. Xalqımıza qarşı törədilmiş bu haqsızlıq, ədalətsizlik aradan götürülməli və Qərbi azərbaycanlılar öz yurdlarına qayıtmalıdır”.

Parlament üzvü vurğulayıb ki, bu proses zamanı Azərbaycandan kənarda yaşayan diaspora qurumlarımızla sıx əlaqədə olmaq lazımdır: ”Mütəmadi beynəlxalq konfransların keçirilməsi, hüquqşünaslarımızın bu məsələni hüquq müstəvisində daim dünya ictimaiyyətinin diqqətində saxlaması çox aktualdır. Təbii ki, ölkə mediası, informasiya gündəmini təyin edən subyektlərimiz də Qərbi Azərbaycana qayıdışı daim müzakirə predmeti etməlidir. Konsepsiyada ən mühüm məsələlərdən biri də Ermənistan konstitusiyasının Qərbi Azərbaycana qayıdacaq soydaşlarımız üçün əlçatan olmasıdır. Bunun üçün Qərbi Azərbaycan İcması bu gün Ermənistana rəhbərlik edən şəxslərlə görüşməlidir. Görüşün nə dərəcədə real olub-olmamasına gəldikdə, şəxsən mən belə bir görüşün reallaşacağına şübhə etmirəm. Əgər Azərbaycan dövləti, hökumətimiz Qarabağda yaşayan mülki erməni əhali ilə, erməni icması ilə birbaşa dialoqa hazır olduğunu bildirirsə, Ermənistanın Baş naziri Nikol Paşinyan da Qərbi Azərbaycan İcması ilə görüşə hazır olduğunu ifadə etməlidir. Baş nazir Ermənistan konstitusiyasının azərbaycanlılar üçün də əlçatan olmasına təminat verməlidir. Bizim məsələyə yanaşmamız tam real və obyektivdir. Öz haqqımızı tələb edirik. Hazırda mövcud reallıq da haqlarımızın gerçəkləşməsi üçün müsbət şərtlər formalaşdırıb”.

**İsmayıl Qocayev**

---

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, Ermənistanla danışıqlarda onlayn diplomatiyaya keçilib. Nazirin sözlərinə görə, Ermənistana danışıqlar təklif olunsa da, onlar konstruktiv danışıqlardan əsassız şəkildə yayınıblar.**



C.Bayramov hesab edir ki, Ermənistan sülh prosesi üzrə danışıqların mahiyyətinə də ciddi zərbə vurur: ”Artıq biz demək olarsa, bu sahədə onlayn diplomatiyaya keçmişik. Şərtlər bir-birimizə ötürülür. Bunun nə qədər effektiv olacağını zaman göstərəcək”. Nazir əlavə edib ki, Azərbaycan kostruktiv tərəf olaraq bu istiqamətdən də imtina etmir.

# Ermənistanla danışıqlarda onlayn diplomatiyaya keçmişik

## Elxan Şahinoğlu: “Müzakirələrin internet üzərindən görüntülü şəkildə aparılmasının zərəri yoxdur”

**”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, xarici işlər naziri Ceyhun Bayramovun ”Ermənistanla danışıqlarda onlayn diplomatiyaya keçmişik, şərtləri bir-birimizə ötürürük” ifadəsindən çıxan nəticə odur ki, tərəflər internet üzərindən müzakirələr aparırlar. Bu, əvvəllər yox idi:** ”Əslində bu qədər vasitəçiyə ehtiyac yoxdur. Hər ölkə və təşkilat ”bölgədə mən də varam” demək üçün tərəflər arasında görüşlər təşkil edir, fotolarla poz verirlər, ortada isə nəticə yoxdur. Müzakirələrin internet üzərindən görüntülü şəkildə aparılmasının zərəri yoxdur. Ermənistan rəsmiləri və Qarabağdakı separatçılar yer qalmayıb Azərbaycandan şikayət etməsinlər. Birinciləri birbaşa dialoqa cəlb etmək lazımdır, ikincilərin isə texniki personalı ilə yerlərdə müxtəlif məsələri həll etmək mümkündür. İkinci Qarabağ müharibəsindən sonra ən azı 3 dəfə Qarabağ erməniləriylə birbaşa təmas olub. Birinci görüş Sərsəng su anbarıyla bağlı olub. İkinci görüşdə onlardan Laçın azad olunanda təxribata yol verməmələri tələb edilib. Üçüncü görüş isə bugünlərdə yataqlarda monitorinqlə bağlı həyata keçirilib. Qarabağın tamamında suverenliyimizin bərpası üçün bütün imkanlardan istifadə etməliyik”.

**İsmayıl**

---

# Ermənilərlə birgə hərəkət edirlər

## Tehran rejimi Azərbaycana münasibətdə düşmən mövqeyindən əl çəkmək niyyətində deyil



**Xocalı faciəsinin ildönümü ilə eyni vaxtda İsfahanda yaşayan ermənilər Azərbaycana qarşı aksiya keçiriblər. İsfahanın Vank kilsəsi ətrafına toplaşan ermənilər Qarabağın Azərbaycan tərəfindən ”mühasirəyə” alındığını iddia edib və Azərbaycanla Türkiyə əleyhinə şüarlar səsləndiriblər.**

Etirazçılar əllərində ”Artsaxın blokadasını dayandırın”, ”Ermənistanın təhlükəsizliyi, İranın təhlükəsizliyidir”, ”Turan dəhlizinə yox!” və s. kimi şüarlar yazılmış plakatlar qaldırıblar. Nümayişdə Ermənistan Parlamentinin deputatı Kristina Vardanyan və İranın Güneyi və İsfahan üzrə arxiyepiskopu Sipan Kaşçiyan da iştirak edib. Qeyd edək ki, ermənilərin Azərbaycana qarşı aksiyasına icazə verən İran rejimi güneydəki soydaşlarımızın Xocalı ilə bağlı anım tədbirlərini yasaqlayıb. Yasağa qarşı çıxan soydaşlarımız ağır şəkildə cəzalandırılıb.

**Siyasi şərhçi Azər Həsrət ”Şərq”ə bildirib ki, İranı idarə edən fars-molla rejiminin hətta Xocalı soyqırımının ildönümündə, yəni çox həssas bir gündə ermənilərin nümayiş təşkil etməsinə şərait yaratması göstərir ki, Tehran rejimi Azərbaycana münasibətdə düşmən mövqeyindən əl çəkmək niyyətində deyil:** ”İran hökuməti Azərbaycana qarşı ermənilərlə birgə hərəkət edir. İran hər fürsətdə Azərbaycana zərbə vurmağa çalışır. Əksər məqamlarda da ermənilərdən istifadə edir, yəni onların əliylə Azərbaycana qarşı düşmənçilik siyasətini həyata keçirir. Tehranın israrla ölkəmizə qarşı yürütdüyü siyasət Azərbaycanda hələ də fars-molla rejiminə rəğbət bəsləyən azərbaycanlıları ciddi düşündürməlidir. Onlar götür-qoy etməli və özləri üçün müəyyənləşdirməlidir ki, fars-molla rejiminin bizə olan münasibəti necədir. Ermənilərin Qarabağla bağlı aksiyasına məhz Xocalı soyqırımının ildönümü günü icazə verildi, daha doğrusu, buna imkan yaradıldı. İrana sevgi bəsləyənlər fars rejimi ilə ermənilərin əlbir olaraq ölkəmizə necə zərbə vurmağa çalışdığını görməlidir”.

**İsmayıl Qocayev**

---

# Qaz təlaşı artıq arxada qaldı

## Ötən illərlə müqayisədə bu il sərt qış müşahidə edilmədi

**Avropada təbii qazın birja qiyməti 4 faiz düşüb.**

**Londonun ”ICE Futures” birjasına istinadən xəbər verir ki, Avropanın ən likvid habı olan TTF-də (Niderland) qazın mart fyuçerslərinin qiyməti günə 554,9 dollarla (-0,8 faiz) başlasa da, sonradan 537 dollarıdək (-4 faiz) düşüb. Dinamika əvvəlki ticarət günü - ötən həftənin cümə günü qeydə alınmış hesablaşma qiymətinə (min kubmetr üçün 559,1 dollar) əsasən hesablanır.**

Xatırladaq ki, ötən ilin analoji dövründə təbii qazın qiyməti hazırkı qiymətdən təxminən 3 dəfə yüksək olmaqla, 1555,5 dollar təşkil edirdi.

**Neft Araşdırmaları Mərkəzinin rəhbəri, enerji məsələri üzrə ekspert İlham Şaban isə ”Şərq”ə açıqlamasında Avropada qazın qiymətinin ucuzlaşmasını mülayim hava şəraiti ilə əlaqələndirib. Onun sözlərinə görə, ötən illərlə müqayisədə bu ilin qış aylarında temperatur nisbətən yüksək oldu, daha doğrusu, sərt qış müşahidə edilmədi. Digər əsas səbəb isə Avropanın yeraltı qaz anbarlarını maksimum doldurmasıdır:** ”Son həftə ərzində Avropada qazın qiyməti 550 dollar ətrafında dəyişir. İlin əvvəlində isə qiymətlər 800 dollardan bir az yuxarı idi. Ötən ilin maksimum göstəricisi ilə müqayisədə qazın qiyməti 7 dəfə ucuzlaşıb. Ötən ilin avqustunda qazın qiyməti 3200 dollara qədər qalxmışdı. Səbəb isə Rusiya Şimal Axını-1 kəməri ilə Avropaya təbii qaz nəqlini dayandırmışdı. Sonradan isə boru kəmərlərinin partlaması bəhanəsi ilə qaz nəqlini bərpa eləmədi. Halbuki Rusiya Avropaya qaz nəqlini partlayışdan əvvəl azaltmışdı.

Həmin aylar qaz ixracının məhdudlaşdırılması bazara emosional təsir etdi və qiymətlər bahalaşdı. Həm də o zaman Avropa qışı necə keçirəcəyini, hansı tədbirlər görəcəyini bilmirdi. Amma xoşbəxtlikdən bu il Şimal yarımkürəsində son 35 ilin ən mülayim qışıdır. Bunun nəticəsində gözləntilərin tam əksinə olaraq Avropa nə dondu, nə də qazın qiymətləri fantastik dərəcədə bahalaşdı. Hava şəraitinə görə, Avropa yeraltı anbarlardan qaz götürmədi. Tələbat azaldığından qazın qiyməti ucuzlaşmağa başladı. Əslində Azərbaycan üçün də eyni hal keçərlidir. Sadəcə, bizim müvafiq qurumlar qış dövrü üçün yeraltı qaz anbarlarında neçə kubmetr qazımız olduğunu heç vaxt açıqlamır. Avropada isə aidiyyəti orqanlar gündəlik olaraq bu cür açıqlamalar verirlər”.

Avropada anbarların 62,3 faiz dolu olmasına diqqət çəkən ekspert qaz təlaşının artıq arxada qaldığını qeyd edib: ”Bu rəqəm fevral ayının 20-nə olan statistikadır və kifayət qədər böyük rəqəmdir. Belə ki, Avropada istilik mövsümü marta qədərdir. Ondan sonra isə iqlimdən asılı olaraq yeraltı qaz anbarlarının doldurulmasına başlanılır. Ötən ilin may ayında Avropa Kommissiyasının vətəndaşlara və biznes qurumlarına qənaətlə bağlı etdiyi müraciət praktikada özünü çox gözəl göstərdi. Avropalılar qaza qənaət etməyi öyrəndilər. Avropa əhalisi qaza 15 faiz qənaət etməyi planlaşdırdığı halda bu rəqəm 21 faiz oldu. 2021-ci ildə Avropada 550 milyard kubmetr qaz istehlak olunmuşdusa, ötən ili 100 milyard kubmetr daha aşağı qaz istehlakı ilə başa vurdular. Nə işıqları kəsildi, nə də soyuqdan donub öldülər. Enerjinin qiymətinin kifayət qədər artmasına rəğmən bir nəfər belə olsun küçəyə çıxıb hökumətə etiraz etmədi. Bir sözlə, Avropa bütün diqqətini bu problemi həll etməyə yönəltdi və Avropanın ”donması” ilə bağlı Rusiyanın”qaz şantajı” planları özünü doğrultmadı. Avropada hökumət-vətəndaş birliyinin, qarşılıqlı etimadın sayəsində qaz getdikcə ucuzlaşır. Hətta ilin 3-cü rübünün sonlarına doğru qazın qiyməti daha da aşağı düşəcək. Ötən ilin birinci yarısında Avropa Rusiyadan 90 milyard kubmetr qaz almışdı, ümumilikdə isə il ərzində Avropanın qaz idxalı 101 milyard kubmetr olmuşdu. Ondan əvvəlki il isə bu rəqəm 155 milyard idi. Avropa İttifaqında Rusiya qazının xüsusi çəkisi 40 faizdən 6 faizə qədər azalıb. Yaranmış vəziyyətdə başqa təchizatçılar axtarılır, bərpa olunan enerjiyə sürətli keçmək istiqamətində planlar cızılır. O cümlədən də Azərbaycan qazının idxalının artırılması gündəmdədir. Məhz bu imkanlar sayəsində Avropa Rusiya qazı olmadan da keçinə bilir”.



### İlham Şaban Avropada qazın qiymətinin ucuzlaşmasını mülayim hava şəraiti ilə əlaqələndirib

**Şəymən Bayramova**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi



# Kiçik və orta biznesin inkişafına daha bir dəstək

## Sahibkarlıq subyektlərinə satış üçün yeni imkanlar yaradılır

**İqtisadiyyatın güclü halqalarından biri olan liberal iqtisadiyyatın möhkəmlənməsi sahibkarlığın inkişafına bağlıdır və Azərbaycan dövləti bu sahədə daha yüksək nəticələrə nail olunması məqsədilə mühüm addımlar atır. Bu addımlar sırasında sahibkarlara dövlət dəstəyinin təmin edilməsi xüsusi yer tutur. Sahibkarlıq subyektlərinin dəstəklənməsi üçün Kiçik və Orta Biznesin İnkişafı Agentliyi bu günlərdə daha bir anlaşma memorandumunun imzalanmasına nail olub.**

Daşkənddə keçirilən 1-ci Özbəkistan-Azərbaycan Regionlararası Forumu çərçivəsində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Özbəkistanın İqtisadi İnkişaf və Yoxsulluğun Azaldılması Nazirliyi yanında Sahibkarlığın İnkişafı Agentliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Agentliyin məlumatında bildirilir ki, sənədi KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və Özbəkistanın Sahibkarlığın İnkişafı Agentliyinin direktorunun müavini Muxtor Şonazarov imzalayıblar. Memorandumda kiçik və orta biznes, qadın sahibkarlığı, dövlət-özəl tərəfdaşlığı, sahibkarlığın təşviqi və biznes subyektlərinin qanuni mənafelərinin müdafiəsi istiqamətlərində məlumat və təcrübə mübadiləsi, birgə təlim, seminar və konfransların təşkili və digər sahələrdə əməkdaşlıq nəzərdə tutulur. Forum çərçivəsində keçirilmiş Özbəkistan-Azərbaycan İşgüzar Şurasının 3-cü iclasındakı çıxışında KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafında müsbət dinamikanı qeyd edərək bunun biznes dairələri arasında əməkdaşlığın genişləndirilməsi üçün əlverişli imkan yaratdığını vurğulayıb. KOBİA sədri KOB-ların dəstəklənməsi sahəsində təcrübə mübadiləsinə, biznes əlaqələrinin genişləndirilməsi üçün qarşılıqlı biznes-missiyaların və digər birgə tədbirlərin təşkilinə, eləcə də Agentliyin sahibkarlara göstərdiyi dəstək və xidmətlərə dair məlumat verib. Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının və Özbəkistanın Ticarət və Sənaye Palatasının təşkilatçılığı ilə keçirilmiş Özbəkistan-Azərbaycan İşgüzar Şurasının 3-cü iclasında hər iki ölkədən rəsmi şəxslər və iqtisadiyyatın müxtəlif sektorlarını təmsil edən iş adamları iştirak ediblər. Azərbaycanda kiçik və orta biznesin rəqəmsallaşma imkanlarının artmasına da önəm verilir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı hesab edir ki, bunun üçün ölkəmiz lazımi potensiala malikdir. ”2020-ci ildə ”COVID-19-dan sonra: Şərq Tərəfdaşlığı ölkələrində biznesin rəqəmsal transformasiyasının sürətləndirilməsi” regional hesabatına əsasən, İƏİT Azərbaycanda şirkətlərin rəqəmsallaşmasına dəstəyin qiymətləndirilməsi aparılıb. ”Azərbaycanda şirkətlərin rəqəmsallaşmasına dəstək” hesabatında Azərbaycanın son onillikdə hüquqi-normativ mühitdə islahatlar və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) yaradılması ilə KOB-un inkişafına institusional dəstəyin gücləndirilməsi yolu ilə KOB üçün biznes mühitinin yaxşılaşdırılmasında mühüm tərəqqiyə nail olduğu qeyd edilir. Lakin təşkilatın fikrincə, Azərbaycan məsələn, lazımi səviyyədə uzlaşdırılmış milli rəqəmsallaşma strategiyası həyata keçirməklə və ünvanlı maliyyə dəstəyi və konsultasiya xidməti vasitəsilə rəqəmsal KOB vasitələrinin tətbiqinə imkan yaratmaqla KOB-un rəqəmsallaşmasını daha da sürətləndirə və gücləndirə bilər. Qeyd edilir ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı nümayəndəli demokratiya və sərbəst bazar iqtisadiyyatının prinsiplərini tanıyan inkişaf etmiş ölkələrin beynəlxalq iqtisadi təşkilatı olmaqla hökumətlərlə və vətəndaşlarla birlikdə faktiki məlumatlara əsaslanmış beynəlxalq standartların müəyyən edilməsi, bir sıra sosial, iqtisadi və ekoloji problemlərin həllinin axtarışı istiqamətində çalışır.

Kiçik və orta biznesin inkişafının təmin edilməsi məqsədilə bu günlərdə daha bir dəstək aksiyası keçirilib. Daha bir ticarət şəbəkəsinə daxil olan üç marketdə mikro və kiçik sahibkarlıq subyektlərinin istehsal etdikləri məhsulların satışına dəstək göstərilib. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin məlumatına görə, ”Bravo” supermarketlər şəbəkəsinə daxil olan üç hipermarketdə bu məqsədlə daimi satış yerləri yaradılıb. Hazırda bu satış yerlərində 10-a yaxın mikro və kiçik sahibkarlıq subyektinin istehsal etdiyi çay, soyuq sıxım yağlar, sular və limonadlar, un, ədviyyat, bal, kofe, sirkə, quru meyvələr, konservləşdirilmiş turşular və sair məhsullar satılır. KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov ”Bravo”ya daxil olan hipermarketdə mikro və kiçik sahibkarların məhsullarının satışı üçün yaradılmış satış yeri ilə tanış olub. Bildirilib ki, KOBİA-ya daxil olmuş müraciətlərə uyğun olaraq sahibkarlıq subyektlərinin məhsullarının iri ticarət şəbəkələrində yerləşdirilməsi istiqamətində işlər davam etdirilir.

**İqtisadçı Fuad İbrahimov ”Şərq”ə açıqlamasında qeyd etdi ki, ticarət şəbəkələrində sahibkarlıq subyektlərinə məhsullarının satışı üçün yer ayrılması təqdirəlayiq haldır:**

- Əvvəla bunu vurğulamalıyıq ki, mikro və kiçik sahibkarlıq subyektlərinin istehsal etdikləri məhsulların ticarət şəbəkələrində satışının genişləndirilməsinə dəstək Azərbaycan Respublikası Prezidentinin 1 dekabr 2021-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş Qaydaya uyğun olaraq həyata keçirilir. Qaydaya əsasən, dövlət dəstəyi KOBİA tərəfindən təmin edilməlidir. 2022-ci ilin yanvar ayından etibarən KOBİA bu dəstəkdən yararlanmaq istəyən mikro və kiçik sahibkarlara şərait yaradır. Müraciət edənlərə ticarət şəbəkələrinin satış məntəqələrində - supermarketlərdə satış yeri ayrılır, sahibkarlıq subyektləri də istehsal olunan mal və məhsulları satışa çıxarırlar. Bu dəstək mexanizmi çərçivəsində müxtəlif ticarət şəbəkələrində 7 daimi satış yeri yaradılıb ki, burada 25-dən çox mikro və kiçik sahibkarın məhsulları satılır. İri ticarət şəbəkələrində məhsullarının satışını təşkil etmək istəyən mikro və kiçik sahibkarlıq subyektləri KOBİA-ya elektron qaydada müraciət edə bilər. Bu dəstək çərçivəsində ticarət şəbəkəsində bir sahibkarın istifadəsinə verilən satış yerinin ölçüsü 50 sm, məhsulların satış sahəsində yerləşdirilməsi müddəti isə 3 aydır. KOBİA-dan bildirilib ki, müraciət edənlərin sayı və məhsula olan maraq nəzərə alınaraq satış sahəsindən istifadə müddəti daha 3 ay uzadıla bilər. Mikro və kiçik sahibkarlıq subyektlərinin istifadəsinə verilən satış yerlərinə görə icarə haqqının əhəmiyyətli hissəsi dövlət tərəfindən qarşılanır. Bu, sahibkarlıq subyektlərinə ciddi bir dəstəkdir, istehsalın artırılmasına, keyfiyyət göstəricilərini yüksəltməyə təşviq edir. Biz daim bu fikri önə çəkirik ki, istehsalçının öz məhsulunu, ikinci, üçüncü tərəf - vasitəçi olmadan birbaşa bazara çıxarması vacibdir. Bu, istehsalçıya stimul verir. KOBİA-nın müəyyən ticarət şəbəkələrində sahibkarlıq subyektlərinə məhsullarını satışa çıxarmaq imkanı yaratması bu mənada müsbət addımdır və nəticə etibarilə liberal iqtisadiyyatın inkişafına xidmət edir.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# İki-üç ilə müəllimlərin maaşı 1000 manatdan yuxarı olacaq

## Növbəti tədris ilindən şagird davranış qaydalarının bütün məktəblərdə tətbiqi gözlənilir



**“Hazırda 800-dən çox məktəb qəzalıdır. Bunları eyni ildə təmir etmək mümkün deyil”. Bunu elm və təhsil naziri Emin Əmrullayev bildirib. Onun sözlərinə görə, bu, mərhələli şəkildə aparılır: ”Elə məktəblər var ki, həqiqətən də ürəkaçan deyil. Amma eyni zamanda bunu gündə düzəltmək mümkün deyil, yavaş-yavaş düzəldilir.**

4 məktəbdən 3-ü təmirlidir və yaxşı vəziyyətdədir, bu, təhsil tariximizdə ən yaxşı vəziyyətdir. İl ərzində təxminən 100 məktəb təmir olunur. Hər rayonda il ərzində təxminən 1 və ya 2 məktəbi düzəltməyə çalışırıq. Eyni zamanda Heydər Əliyev Fondu tərəfindən də məktəblər düzəldilir. Birinci olaraq ən böyük və daha pis vəziyyətdə olan məktəblər təmir edilir”.

### “Bu ənənə daha çox davranış problemidir”

Nazir 8 Martda müəllimlərə hədiyyə verilməsinə münasibət bildirib. Qeyd edib ki, belə olan halda valideynlər mütləq şəkildə şikayət etməlidirlər: ”8 Mart öncəsi müəllimlərə hədiyyə alınması ilə bağlı hallar iki yerə bölünür. Birinci, məcburetmə və külli miqdarda hədiyyə yığılmasıdır. Nazirlik olaraq biz də araşdırma aparırıq. Çox bahalı hədiyyə alınması və külli miqdarda pul yığılması müəllimə, məktəb idarəçiliyinə uyğun olan iş deyil. Bəzi hallarda bunun təşəbbüskarı bir valideyn qrupu olursa və digər valideyn qrupu ondan şikayət edirsə, bu zaman biz müdaxilə edə bilmirik. Bu ənənə daha çox davranış problemidir. Bunu mədəni transformasiya yolu ilə dəyişməliyik. Valideynlər müəllimlərə bahalı hədiyyə alıb, rüşvət verməkdən imtina etməlidirlər. Bundan utanmamalıdırlar. Müəllimləri maddi dəyəri böyük olmayan, lakin mənəvi dəyəri böyük olan hədiyyələrlə təbrik etsələr, müəllimlər də sevinər”.

### “Direktor ilk növbədə öz fənnini yaxşı bilməlidir”

E.Əmrullayev pedaqoji təhsili olmayanların məktəb direktorluğu məsələsinə münasibət bildirib: ”Bəzən mediada hansısa direktorun pedaqoji təhsili olmadığına dair məlumatlar yayılır. Lakin biz də izah veririk ki, həmin şəxs sonradan pedaqoji təhsil alıb. Əgər digər ixtisas sahibləri yenidən hazırlıq keçibsə, təhsili idarəetmə diplomu varsa, direktor təyin edilə bilər. Bildiyimiz qədərilə pedaqoji təhsili olmayan direktor yoxdur. Belə şəxslər varsa, nazirliyə müraciət edə bilərsiniz. Direktor ilk növbədə öz fənnini yaxşı bilməlidir. Amma öz fənnini yaxşı bilən hər müəllim də direktor ola bilməz”.

Nazir qeyd edib ki, 2023-2024-cü tədris ilindən şagird davranış qaydalarının bütün məktəblərdə tətbiqi gözlənilir. O bildirib ki, hazırda 300 məktəbdə pilot layihə kimi tətbiq olunur: ”Tədris ilinun sonunda toplanan məlumatlar və tədqiqatlar əsasında son düzəlişlər edərək tətbiq etməyi planlaşdırırıq. Əgər qaydalar özünü doğrultmasa, pilot layihənin müddəti uzadıla bilər. Artıq işlərin böyük qismi geridə qalıb. Hüquqi normativlə bağlı müvafiq əsasnamələr hazırlanıb və müvafiq qurumlara göndərilib. Bəzi dəyişikliklər elm və təhsil haqqında qanunlara dəyişiklik edilməsini tələb edir. Düşünürəm ki, bu, bir neçə ay davam edəcək. Ümumilikdə agentliklərin may ayında yaradılmasını planlaşdırırıq. Artıq növbəti tədris ilinin hazırlıqlarını Elm və Təhsil Nazirliyi yox, Agentliklər edəcək”.

Qeyd edək ki, Prezident İlham Əliyevin ötən ilin iyulunda imzaladığı fərmanla Elm və Təhsil Nazirliyinin tabeliyində Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi yaradılıb.

### “Bu il 35 minədək müəllimin sertifikatlaşdırmaya cəlb olunması planlaşdırılır”

Emin Əmrullayev bildirib ki, bu il təxminən 35 minədək müəllimin sertifikatlaşdırmaya cəlb olunması planlaşdırılıb: ”Proses bütün regionları əhatə etməklə ibtidai sinif müəllimlərini əhatə edəcək. Həmçinin Azərbaycan dili və ədəbiyyat müəllimlərinin bir hissəsi sertifikatlaşdırmaya cəlb olunacaq. Proses 2025-2026-cı ildə tam başa çatacaq. 2025-ci ildə sertifikatlaşdırmadan keçə bilməyən müəllimlərə 2026-cı ildə növbəti dəfə imtahan verməleri üçün şans yaradılacaq”. Nazir qeyd edib ki, ölkə üzrə sertifikatlaşdırmanın əhatəsi artdıqca, orta aylıq əməkhaqqı məbləğində növbəti 4 il ərzində 15 faiz artım gözlənilir: ”Sertifikatlaşdırılmadan uğurla keçən müəllimlərin maaşı 1195, sertifikatlaşdırmada iştirak edənlərin maaşı 970, ümumiyyətlə sertifikasiyadan keçməyənlərin əməkhaqqı isə 760 manatdır”. Qeyd edək ki, 11 min 133 nəfər sertifikasiyaya cəlb olunub.

### “Saxta diplomu olan düşünür ki, nazir onu qəbul etsə, işini həll edə bilər”

Elm və təhsil naziri deyib ki, son 10 ildə müəllimlərin orta aylıq əməkhaqqı məbləği 3 dəfə artıb. O bildirib ki, sonuncu artımla müəllimlərin orta aylıq əməkhaqqı 790 manata çatıb: ”İki-üç ildən sonra müəllimlərin orta aylıq maaşının 1000 manatdan yuxarı olacağını gözləyirik. Hazırda 4 müəllimdən birinin maaşı 1000 manatdan artıqdır”. Qeyd edək ki, fevralın birindən diaqnostikası aparılan müəllimlərin maaşı 10 faiz artıb.

Emin Əmrullayev bildirib ki, saxta diplomu olan düşünür ki, nazir onu qəbul etsə, işini həll edə bilər: ”Azərbaycanda 120 min müəllim var. Onların 10 faizinin müraciətini nazir 10 dəqiqə oxusa, buna vaxt çatdırmaq olmaz. Xaricdə qeyri-qanuni yolla təhsil alan, əlində saxta diplomu olan şəxs elə düşünür ki, nazir onun müraciətinə özü baxsa, müstəsna hal kimi işini həll edə bilər. Bu, belə deyil”.

**İsmayıl**

# Şeyx ABŞ-də!

## “Bu kimi görüşlər təqdirəlayiqdir və daha çox olmalıdır”



**Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə fevralın 27-də Amerika Birləşmiş Ştatlarına səfərə yola düşüb.**

İdarədən verilən xəbərə görə, QMİ sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti İsa Məsih Sonuncu Gün Müqəddəsləri kilsəsinin və Stirlinq Fondunun dəvətilə 28 fevral - 4 mart tarixlərində ABŞ-nin Yuta Ştatının paytaxtı Solt-Leyk-Sitidə səfərdə olaraq.

Səfər proqramında Yuta Senatının prezidenti Stüart Adams, Yuta ştatının vitse-qubernatoru Diedre Henderson, İsa Məsih Sonuncu Gün Müqəddəsləri kilsəsinin rəhbərləri, G20 Dinlərarası Forum qrupu, habelə Xədicə Məscidində müsəlman İcması, Kol Ami sinaqoqunda Yəhudi İcması və Azərbaycan diasporasının üzvləri ilə görüşlər nəzərdə tutulub.

**Qafqaz Müsəlmanları İdarəsinin sədrinin və digər dini icma rəhbərlərinin ABŞ səfərinin önəmli addım olduğunu deyən ilahiyyatçı Tural İrfan ”Şərq”ə vurğulayıb ki, Ermənistan Azərbaycan müharibəsi başlayandan bəri ermənilər tərəfindən Azərbaycanın müsəlman və xristian dini abidələri təhqir edilərək dağıdılıb:** ”Mən həmişə QMİ-ni və onun sədrini aktiv olmadığı üçün tənqid etmişəm. Düzdür, onlara da bir qədər İran təzyiqi var idi. Yəni idarə İran ruhundan ayrıla bilmədiyi üçün bu cür çətinliklərlə qarşılaşırdı. Hətta QMİ rəhbərliyinin İran müştehidlərini təqlid etməsi və onların fitvası ilə hərəkəti, qeyri- dinlərin rəhbərləri ilə görüşə icazə vermirdi. İndi isə QMİ-nin Cənub qonşumuzun təsir orbitindən uzaqlaşdığını görürük. Bu kimi görüşlər təqdirəlayiqdir və daha çox olmalıdır”.

T.İrfan qeyd edib ki, Azərbaycandakı dini tolerantlıq bütün dünyaya nümunə kimi göstərilməlidir: ”Həmçinin Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı din adamları da böyük işlər görməlidir. Hətta A.Paşazadə və Azərbaycanda olan digər dinlərin icma rəhbərləri Roma papası ilə görüşüb ona təsir göstərə bilərlər. Yəni Ermənistanın vəhşilikləri və dini abidələrə hörmət etməməsi haqqında məlumatlar verilməlidir.

Təəssüf ki, bu gün ölkəmizdəki inanclı insanların yarısı İrandakı Xameneinin, yarısı da İraqdakı Sistaninin fitvası ilə hərəkət edir. Amma nə Xamenei, nə də Sistani Qarabağ işğalı və Xocalı soyqırımı barəsində bir kəlmə belə danışmayıblar. Halbuki bu insanlar onlara xüms və zəkat pulları göndərir.

Bunun qarşısını QMİ indiyə kimi almalı idi, amma almayıb. İndi isə heç olmasa, başımıza gələn hadisələrlə bağlı dünyada təbliğat aparsınlar. Bu baxımdan da hesab edirəm ki, belə görüş və səfərlər daha da çoxalmalıdır”.

**Nihat Müzəffər**

# Hamını düşündürən ancaq menyudur

## Şadlıq sarayında mərasim keçirmək istəyən vətəndaş heç vaxt oranın mətbəxinin, sanitar qovşağının hansı durumda olduğu ilə maraqlanmır

**Bərdədə nöqsanlar aşkarlanan şadlıq evinin fəaliyyəti məhdudlaşdırılıb. Bu barədə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyindən məlumat verilib. Nəzarət tədbirləri çərçivəsində agentlik əməkdaşları Bərdə rayonu, Şirvanlı kəndində fəaliyyət göstərən fiziki şəxs Cəfərov Fəxri Musa oğluna məxsus “Fərid” şadlıq evində yoxlama aparıb.**



Sağlamlığı qorumaq hamının borcudur. O cümlədən də ictimai iaşə obyektlərində bu məsələlərə ciddi yanaşılmalıdır

Yoxlama zamanı müəssisənin sanitar-texniki və sanitariya-gigiyenik vəziyyətinin qüvvədə olan normativlərə cavab vermədiyi, döşəmə, divar və tavanın tamlığının pozulduğu və asan yuyulub-təmizlənə bilən, suya və dezinfeksiyaedici maddələrin təsirinə davamlı materiallarla üzlənmədiyi, mexaniki havalandırma sisteminin quraşdırılmadığı, mətbəx sahəsində döşəmədə çirkab suların axıdılması məqsədilə drenaj sistemin qurulmadığı, qida ilə təmasda olan işçi masaların səthlərinin asan təmizlənmə və dezinfeksiya işlərinin aparılmasına imkan verən tərzdə təchiz edilmədiyi, işçi heyətin şəxsi gigiyenası məqsədilə əlyuma çanaqlarının yerləşdirilmədiyi və digər nöqsanlar aşkar olunub. Nöqsanlarla bağlı qanunvericiliyə uyğun olaraq inzibati protokol tərtib edilib, müəssisənin fəaliyyəti məhdudlaşdırılıb, icrasına göstərişlər verilib. Faktla bağlı araşdırmalar davam etdirilir.

Eyni nöqsanlar, bəlkə də şadlıq saraylarının, kafe və restoranların bir çoxunda mövcuddur. AQTA dəfələrlə analoji məlumatlar açıqlayıb, nöqsanlar aşkarlanan ictimai iaşə obyektlərinin adlarını sadalayıb. Lakin problem aradan qalxmır. Fəaliyyəti məhdudlaşdırılan müəssisələr bir müddət sonra, guya ki, nöqsanları aradan qaldırıb yenidən işə başlayırlar. Nöqsanlarsa çox zaman olduğu kimi qalır. **Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bu fikirdədir ki, ictimai iaşə obyektlərinin sanitar-texniki, eləcə də sanitar-gigiyenik normaların pozulması və nöqsanların aradan qaldırılmamasında əhalinin də “payı” var:**

- Çox zaman əhali gigiyenik normalara nə dərəcədə riayət edildiyinin fərqinə varmır. Sizcə, şadlıq sarayında, şadlıq evində hansısa mərasim keçirmək istəyən vətəndaş oranın mətbəxinin, sanitar qovşağının hansı durumda olduğu ilə maraqlananın sayı nə qədər olar? Məncə, çox az. Bəlkə də tək-tük insan bununla maraqlanır. İnsanları qonaqlara hansı yeməklərin təqdim olunacağı, ətin haradan gətiriləcəyi, menyuda nə var, nə yox, menyunun qiyməti maraqlandırır. Toy edənlə, şadlıq sarayı inzibatçısı arasındakı söhbətin əsas məzmunu bu olur. Masaya nələr veriləcək, menyu neçəyədi, nəyi menyudan çıxarmaq olar ki, qiymət bir az aşağı düşsün, buna bənzər məsələlər. Toy edənin mətbəxə baxış keçirməsi, qidaların, ərzağın saxlandığı yerə baxması, nadir hallarda baş verən hadisədi, bəlkə də ümumiyyətlə, belə hal baş vermir. Ona görə də şadlıq sarayı rəhbərliyi də təmizlik, normalara riayət etmək kimi məsələlərə ikinci, üçüncü dərəcəli iş kimi baxır. Rəhbərlik də əsas diqqəti menyuya və əlbəttə ki, daha çox gəlir əldə etməyə yönəldir. Nəticədə biz istehlakçıların hüquqları pozulur. Bizə keyfiyyətsiz qidalar da təqdim olunur, natəmiz mətbəxdə hazırlanan yeməklər də qarşımıza gətirilir. Qonaqlar da, toy sahibi də sanitar qovşağın natəmizliyini, uyğunsuz halda olmasını toyun ortasında görürlər. Daha bundan sonra kimə, necə şikayət edəcək. O vaxt kimsə nə şikayət etmək halında olur, nə də bunun marağında.

Əslində necə olmalıdır, ictimai iaşə obyektlərində çalışanlar müntəzəm tibbi müayinədən keçirilməli, yoluxucu xəstəlikləri olub-olmadığı müəyyənləşməlidir, bunu təsdiq edən, müayinə olunduqlarını təsdiqləyən tibbi sənədləri olmalıdır. İctimai iaşə obyekti işçilərinin təmizliyinə, geyimlərinə, gigiyenik normalara riayət etdiklərinə daimi nəzarət olmalıdır. İşçilər təmizlik vasitələri, gigiyenik vasitələrlə təmin edilməli, obyekt dezinfeksiya məhlulları ilə müntəzəm yuyulmalı, təmizlənməldiir. Təəssüf ki, bizdə bu məsələlərə çox zaman səhlənkar yanaşılır. Sanitar-gigiyenik qaydalara ciddi riayət edilmir. Xarici ölkələrdə belə məsələlərə ciddi fikir verirlər, çünki adi səhlənkarlıq, məsuliyyətsizlik restoran, kafe sahibinə baha başa gələ bilər. Baha başa gəlmək təkcə o demək deyil ki, gəlib onu cərimə edəcəklər, ziyana düşəcək. Cərimə öz yerində, amma sahibkarın əsas itkisi müştəri inamsızlığıdır. Əsl sahibkar müştəriləri itirməkdən qorxmalıdır, vergi və ya qida təhlükəsizliyi agentliyi əməkdaşından deyil. Satış mərkəzində, ictimai iaşə obyektində çalışan işçi heç özü də bilmədən hansısa xəstəliyə yoluxmuş ola bilər. Tibbi müayinədən keçmək bu mənada ilk növbədə işçinin özünə lazımdır, əgər hansısa xəstəliyi varsa, vaxtında aşkarlansın və müalicə olunsun. Hər bir işçinin tibbi kitabçası olmalıdır və orada vacib müayinələrdən keçməsi haqqında məlumat qeyd olunmalıdır. Hazırda dünyada bilinən və bilinməyən müxtəlif xəstəliklər, viruslar var. Sağlamlığı qorumaq hamının borcudur. O cümlədən də ictimai iaşə obyektlərində bu məsələlərə ciddi yanaşılmalıdır. İstehlakçılar da tələbkar olmalıdır. Əgər hansısa kafedə, restoranda əyləşib yemək sifariş edirsənsə, keyfiyyətli xidmət görəcəyindən əmin olmalısan. Bunun üçün də tələbkar olmaq lazımdır. İstehlakçının haqqı var ki, xörəyin hansı ərzaqla və hansı şəraitdə bişirildiyini bilsin. Madam ki, yemək sifariş edirik və buna görə ödəniş edirik, keyfiyyət tələb etmək haqqımız da var.

**Məlahət Rzayeva**

# Tiktokun 3 milyondan çox azərbaycanlı istifadəçisi var

## İnsanların alçaldılmasının, təhqir olunmasının qarşısı alınmalıdır




“Kontenti dəyişmək istəyiriksə, ziyalılar, Qeyri-Hökumət Təşkilatı nümayəndələri, jurnalistlər, millət vəkilləri belə cəmiyyəti daha sağlam fikrə çağırmalıdır”

**Son vaxtlar tiktok sosial platformasında söyüş və təhqirlər səsləndirənlər ictimai qınağa tuş gəlirlər. Hətta həmin platformada təhqirlərə məruz qalan bəzi şəxslər polis orqanlarına da müraciət edirlər.**

Tiktokun bağlanmasını istəyənlər də az deyil. Səbəb kimi isə orada qeyri-etik və mənasız kontentin yayılması göstərilir. Sosial platforma həmçinin bir çoxları üçün qazanc mənbəyinə çevrildiyindən bir qisim istifadəçi bununla razılaşmır. Çox təəssüf ki, müasirlik deyəndə, avropalaşmaq deyəndə düşüncələrdə söyüşlə danışmaq formalaşır. Şübhəsiz, hansısa avropalı sözügedən platformadan şəxslərin ünvanına təhqir səsləndirmək üçün istifadə etmir.

Dünyanın bir çox inkişaf etmiş ölkələri, hətta ABŞ və Böyük Britaniyada yüksəksəviyyəli dövlət rəsmiləri Tiktokun bağlanılmasını və ya qanunlarla tənzimlənməli olduğunu bildirirlər.

**Mövzu ilə bağlı ”Şərq”ə danışan ”Azxeber.com”un baş redaktoru, Mətbuat Şurasının (MŞ) İdarə Heyətinin üzvü Hacıbəy Heydərli təəssüflə bildirib ki, Azərbaycanda tiktok platforması əxlaqsızlığın ən çox təbliğ edildiyi seqmentə çevrilib:** ”Yüzlərlə neqativ videonun, canlı yayımda bir-birini təhqir edənlərin şahidi oluruq. Söyüşlə məşhurlaşan bəzi tiktok istifadəçiləri saxlanıldı, hətta narkotik vasitələrdən istifadə etdikləri də aşkarlandı. Deməli, canlı yayım açan şəxslərin bir qismi sağlam həyat tərzi sürmür.

Azərbaycan seqmentində belə paylaşımların olmaması üçün ictimaiyyət qınamalı və hüquqi addımlar atılmalıdır. Qanun pozuntusu varsa, şərəf və ləyaqətə toxunulubsa, müvafiq orqanlara müraciət etmək lazımdır. Həmin şəxslərə qarşı tədbir görülməyəndə cəzasız mühit olduğunu düşünürlər, rahat şəkildə özlərini büruzə verirlər.

Cəmiyyətdə ictimai yükü olan şəxslər maarifləndirici paylaşımlar etməlidir.

Tiktokda 3 milyondan çox azərbaycanlı istifadəçisi var. İnsanların alçaldılmasının, təhqir olunmasının qarşısı alınmalıdır. Kontenti dəyişmək istəyiriksə, ziyalılar, Qeyri-Hökumət Təşkilatı nümayəndələri, jurnalistlər, millət vəkilləri belə cəmiyyəti daha sağlam fikrə çağırmalıdır. Yalnız qanun-qayda yox, ictimai qınaq və vətəndaş mövqeyi ilə neqativ halların qarşısını ala bilərik. Tiktokun bağlanmasına ehtiyac yoxdur. Çünki sağlam kontentlər yaradıb, gəlir qazanan şəxslər də var”.

**Aygün**

# İrandan gətirilən ağrıkəsicilər infarkt yaradır?

## Adil Qeybulla: “Ağrıkəsici dərmanların insan orqanizminə əks təsirləri danılmazdır”

**”Son zamanlarda gənclərdə görülən infarktların əsas səbəblərindən biri də İrandan gətirilən ağrıkəsicilərdir. Bu dərmanları İrandan gələn maşınların şoferlərinə aldırırlar”. Bu sözləri sosial media hesabında kardioloq Firdovsi İbrahimov yazıb.**





Qeyd edək ki, ölkə ərazisində fəaliyyət göstərən apteklərdə İran dərmanlarının satışı qadağan olunsa da, insanlar fərdi olaraq bu dərmanları müxtəlif yollarla əldə edirlər. İrandan alınan dərmanlardan istifadə edən şəxslər ağrıya daha tez təsir etdiyini bildirirlər. Həm də İran dərmanları nisbətən ucuz olduğundan ona görə üstünlük verirlər.

**Məsələ ilə bağlı ”Şərq”ə açıqlama verən professor Adil Qeybulla isə deyib ki, İranda istehsal edilən dərmanların keyfiyyət parametri elə də aşağı deyil. Bu dərmanlar İranda öz vətəndaşlarının istifadə etməsi üçün hazırlanır və kütləvi şəkildə istifadə olunur. Xəstələrin İran istehsalı olan dərmanları alıb istifadə etmələrində heç bir problem yoxdur.**

A.Qeybullanın sözlərinə görə, ağrıkəsicilərin infarkt yaratması iddiası isə sual doğuran bir məsələdir: ”Belə məlumatlar konkret elmi araşdırmalara yox, şayiələrə söykənir. Əgər Irandan gətirilən konkret bir dərmanın yan təsiri ilə bağlı fakt varsa, bunu şərh etmək olar. Bu baxımdan İran dərmanlarının infarkt yaratması ilə bağlı iddiaları əsassız hesab edirəm”.

Ağrıkəsicilərdən mütəmadi istifadə və dozanın tədricən artırılmasının insan həyatı üçün böyük risk yaratdığını xatırladan professor deyib ki, ağrıkəsici dərmanların insan orqanizminə əks təsirləri danılmazdır: ”Bu dərmanlar mədənin selikli qişasını zədələyir, mədə xorası və qanama riski yaradır. Mütəmadi olaraq ağrıkəsicilərdən istifadə edənlərin böyrəkləri də zədələnir. Bir çox ağrıkəsicilərin ürək xəstəlikləri riskini artırdığı da sübut edilib. Amma bu, sadəcə, İranda istehsal olunan ağrıkəsicilər yox, digər ölkələrdən idxal olunan ağrıkəsicilərin istifadəsi zamanı da mümkündür. Yəni sadəcə, ”İran ağrıkəsiciləri infarkta səbəb olur, Avropadan, Rusiyadan idxal olunan ağrıkəsicilərin heç bir yan təsiri olmur” demək düzgün deyil. Normal dozada istifadə etdikdə ağrıkəsicilər faydalı, doza həddini aşanda isə zərərli olur”.

**Şəymən**

# Kim haqlıdır, jurnalist, yoxsa Bayram Səfərov?

## Ekspertlərin fikirləri də haçalandı

**Ötən gün Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərovla jurnalist arasında yaranan qalmaqal ciddi müzakirələrə səbəb olub. Jurnalist B.Səfərova Şuşaya səfər edib-etməməsilə bağlı sual verib. Sualdan yayınan icra başçısına jurnalist növbəti dəfə sual verdikdə, o, əsəbiləşib.**




Media nümayəndəsinin ”Jurnalist sizdən hesab sora bilməz?” replikası isə gərginliyi artırıb. Bəzi media nümayəndələri bu məsələdə jurnalistə dəstəyini bildirsə də, onu tənqid edənlər də olub.

Əksəriyyət, xüsusilə media nümayəndələri məmurun qeyri-normal cavabına jurnalistin qeyri-adekvat reaksiya verdiyini düşünür. Media ekspertlərinin fikrincə, jurnalist hər cür ekstremal şəraitə düşə, kobud cavabla üzləşə bilər. Ancaq bu şəraitdə peşə etikasına və tələblərinə uyğun davranmalıdır. Qeyd edək ki, müsahibəni alan ”Toplum TV”nin jurnalisti Fərid İsmayılovdur.

**Sözügedən məsələ ilə bağlı ”Axar.az”a açıqlama verən media eksperti, professor Qulu Məhərrəmli bildirib ki, jurnalist istədiyi adama, istədiyi sualı verməlidir; onun suallarına heç bir məhdudiyyət yoxdur:**

”Ola bilər ki, jurnalistin ifadələrində yerinə düşməyən sözlər olsun, ola bilər ki, sual bir az emosional şəkildə verilsin. Bütün hallarda ictimai maraq kəsb edən mövzudursa, jurnalist istədiyi sualı verə bilər. Məmurun borcu bu sualı cavablandırmaqdır. Amma məmurun da cavab verməmək hüququnu tanımaq lazımdır. Ona görə də məmurun cavab vermədiyi halda jurnalistlərin dirəniş göstərməsi heç də həmişə onların xeyrinə olmur. Həmişə sualı etik çərçivəni gözləməklə vermək lazımdır”.

Professor qeyd edib ki, bu kontekstdə jurnalisti qınamır: ”Jurnalist istədiyi sualı verə bilər və o tamaşaçı, oxucu, auditoriya üçün bu cavabı almalıdır. Doğrudur, jurnalist ard-arda eyni sualı verməkdən və yersiz mübahisədən yayınmalıdır. Suala verilən cavab artıq oxucu-tamaşaçı rəyini formalaşdırır. Yəni jurnalistin çılğın reaksiyasına ehtiyac yoxdur, nəticəni tamaşaçının ixtiyarına buraxmaq lazımdır. Bu halda uduzan məmur olur, jurnalist deyil”.

**”Yeni Müsavat” qəzetinin redaktoru Elşad Məmmədli isə hesab edir ki, əgər icra başçısı, məmur müsahibə zamanı qaba, kobud davranırsa, ”saa nə dəxli var?!” deyib canını qurtarmaq, aradan çıxmaq istəyirsə, jurnalistin bir çıxış yolu var:** ”Başçı özünü biabır edənə, qaçıb gedənədək təmkinlə, soyuqqanlı və jurnalist etikası çərçivəsində ona vəzifə öhdəliyinə, məsuliyyətinə dair ardıcıl suallar verməlidir. Bu zaman müxbir də haqlı ikən haqsız duruma düşməyəcək. ”Hesab sormaq” medianın işi, səlahiyyəti deyil. Sualına cavab almaq haqqı, hüququ pozulanda müxbir bunu hazırladığı materialda vurğulaya bilər. Ardınca digər bir materialda o məmurun hökumət, əhali qarşısında hesabat verməli olduğu məsələləri, yerinə yetirmədiyi öhdəlikləri, milyardlıq biznesinin mənbəyini araşdırıb, yaza bilər. Nəticədə məmur başa düşəcək ona dəxli olan nə varsa...

Bayram Səfərov kimi savadlı olmayan məmura müsahibə zamanı de-fakto uduzan jurnalist üzərində çox işləməlidir...”.

**”Toplum TV”nin əməkdaşı Fərid İsmayılov isə onu tənqid edənlərə feysbuk hesabında cavab verib:** ”Şuşa RİH-nin başçısı Bayram Səfərova yaxınlaşdım, müsahibə üçün razılıq aldım, adam sualımı eşidəndən sonra mikrofonumu çıxartdı. 2-ci dəfə ondan sualıma cavab almağa çalışdım və icra başçısı aqressiv cavabla sualımdan yayındı. Dəqiq cavab ala bilmədiyim üçün sualı bir daha təkrarladım, çünki mənim bir jurnalist kimi oxucu qarşısında öhdəliyim var. Cəmiyyətdə də Bayram Səfərovun Şuşaya gedə bilməməsilə bağlı fikirlər səsləndirilir, bu səbəblə mən həmin suala cavab almağa çalışdım. Onu da deyim ki, nəinki jurnalistin, vətəndaşın belə məmurdan hesab soruşmaq haqqı var. Vətəndaşın seçmədiyi, vətəndaş qarşısında hesabatlılıq olmadığı hallarda nəticə belə olur. Nə eləmişəmsə, yaxşı eləmişəm”.

**Şəymən**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
“Muğanbank” ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 597



# Dünyada aclıq və səfalət durmadan artır

## 2023-cü ilə dünyada 339 milyon insan humanitar yardıma ehtiyac duyacaq

**Dünyada aclıq və səfalət durmadan artır. Son 10 il ərzində dünya nəinki irəliyə doğru hərəkət etməyib, əksinə, geriyə gedib.**

Azərtac xəbər verir ki, bu sözləri BMT-nin Baş katibi Antonio Quterreş Cenevrədə İnsan Hüquqları üzrə Şuranın 52-ci sessiyasının açılışında çıxışı zamanı deyib. Baş katib bildirib ki, 2023-cü ilə dünyada 339 milyon insan humanitar yardıma ehtiyac duyacaq ki, bu da 2022-ci illə müqayisədə 52 faiz çoxdur.

"Dünyanın bir sıra regionlarında baş verən hərbi münaqişələr dövlətlərin infrastrukturunun dağılmasına səbəb olub. Ərzaq məhsullarının istehsalı azalıb, qiymətləri isə artıb. Hərbi münaqişələr humanitar yardımın ehtiyacı olanlara çatdırılmasına böyük maneə yaradıb. Bütün bunlar dünyada aclıq və səfalətin getdikcə artmasına gətirib çıxarıb", - deyə A.Quterreş vurğulayıb.

# Turp yeyin, xərçəngdən qoruyur!



**Diyetoloq və endokrinoloq Lazurenka müsahibəsində bildirib ki, ucuz turp məhsulu həddindən artıq qoruyucu maddələri özündə cəmləşdirir.**

Xüsusən C vitamini ilə zəngin olduğundan qan dövranını yaxşılaşdırır. C vitamini adətən insanın tez yaşlanmasının qarşısını alır.

"Medicina" xəbər verir ki, əgər əsas məsələ sərbəst radikalların aradan qaldırılmasından gedirsə, o zaman C vitamini qocalmağa yönəlmiş yaşlanma əleyhinə terapiyanın ən vacinb məhsullarından sayılır.

O sərbəst radikalları zərərsizləşdirdiyindən avtomatik olaraq xərçəngin də qarşısını almış olur.

Həkim qeyd edib ki, turpun tərkibində B vitamini, kükürd və digər mikroelementlər qocalmanın qarşısını alır.

Turpu sürtgəcdən keçirib, salatlara qatıb yeyə bilərsiz.





# Xəstəliyin səbəbi başqadır

## Consonun əcdadının mumiyası alimləri təəccübləndirib

**Böyük Britaniyanın sabiq Baş naziri Boris Consonun XVIII əsrdə yaşamış, şəcərədə altıncı nənəsinin mumiyası üzərində aparılan tədqiqat elm adamlarını təəccübləndirib. Uzun illər sonra məlum olub ki, Anna Katerina Bisşof əvvəllər ehtimal edildiyi kimi yoluxucu xəstəlik olan frengi səbəbindən deyil, başqa bir bakterioloji xəstəlik səbəbindən vəfat edib.**

Boris Consonun nənəsinin mumiyası, maraqlıdır ki, "İsveçrənin ən məşhur mumiyası" hesab edilir. Mumiyanın B.Consonun altıncı nənəsinə aid olduğu 2018-ci ildə aşkarlanıb. Mumiya üzərində 1975-ci ildə tədqiqat aparılarkən mumiya qalıqlarında yüksək dərəcədə civə tapıldığından nənənin məhz frengi xəstəliyindən öldüyü ehtimalı üzərində dayanılıb. Çünki XVII əsrdə frengi xəstəliyinin müalicəsində civədən istifadə edilirdi. Lakin sonra digər orqanlardakı mikrobların analizi başqa bir bakteriyanın yüksək səviyyədə olmasını üzə çıxarıb. "Eurac Research"in mikrobiologiya üzrə mütəxəssisi Muhamməd Sarhan verdiyi açıqlamada bildirib ki, mumiyalanmış cəsəddə hər orqandan nümunə alınaraq analiz edilib, lakin frengiyə səbəb olacaq patogenin

**Şəcərədə altıncı nənəsi başqa bir bakterioloji xəstəlik səbəbindən vəfat edib**

DNA izləri tapılmayıb. Amma beyində olduqca yüksək səviyyədə yeni bir bakteriya aşkarlanıb. Bakteriya hazırda mövcud olan bakteriyalarla müqayisə edildikdə ilginc nəticə əldə edilib. Məlum olub ki, mumiyadakı bakteriyalar müasir bakteriyalarla genetik əlaqəyə malikdir. Mütəxəssis hesab edir ki, xanım Bisşofa yanlış diaqnoz qoyulub. Bisşof 69 yaşında vəfat edib və başqa sağlamlıq problemləri də olub. Nənə kök qadın olub, öd kisəsində daşlar vardı, yanlış olaraq civə müalicəsi alması orqanizmini zəiflədib, lakin ölümün əsl səbəbi bu deyil. Mumiyanın hazırda mühafizə edildiyi Bazel Təbiət Tarix Muzeyinin əməkdaşı, doktor Gerhard Hotz isə bildirib ki, qadının kəllə sümüyündə frengi xəstəliyinin əlamətləri açıq şəkildə görünür. Amma bunu genomlarla isbatlamaq mümkün deyil. G.Holtz qeyd edib ki, xanım Bisşofun həyat yoldaşı rahib olub. Qadın rahibin həyat yoldaşı olaraq həm kilsəni, həm də Strasburqda yaşadıqları evin yaxınlığındakı xəstəxananı tez-tez ziyarət edirmiş. Qadın bu xəstəliyə xəstələrin ziyarəti zamanı da yoluxa bilərdi. Anna Katerina Bisşof 1719-cu ildə Fransanın Strasburq şəhərində, varlı bir ailədə dünyaya gəlib. Atası da rahib imiş və isveçrəli ailələrə xidmət edirmiş. 40 yaşında vəfat etdikdə, ailə Bazelə köçüb. Anna burada atasının vəzifəsini yerinə yetirən rahiblə ailə qurub. 7 övladı olub. Anna Katerina adlı qızı Boris Consonun ailə şəcərəsindəki sıralamada beşinci nənəsidir. Xanım Bisşof 1787-ci ildə Bazeldə vəfat edib. Xəstələndiyi zaman müalicəsində istifadə olunan civə maddəsi isə cəsədin çürüməsinin önünü alıb və cəsəd mumiyaya çevrilib.

**Məlahət**



# Məşhur aktrisa yenidən əməliyyat olundu

**Xərçəngdən əziyyət çəkən "Yeşilçam" aktrisası Filiz Akın əməliyyat olunub.**

Axşam.az xəbər verir ki, bu barədə aktrisa sosial media hesabında yazıb.

"Sol qulağımın üst hissəsindəki xərçəng toxuması ikinci əməliyyatla kəsildi. Bəli, ard-arda çox əməliyyat etməli oldum, amma fevralın 6-dan bu yana baş verənlərlə müqayisədə nədir ki?" deyə o, bildirib.

# Tanınmış prodüser 101 yaşında vəfat etdi



**Amerikalı prodüser və "Oskar" mükafatçısı Uolter Miriş vəfat edib.**

Axşam.az xəbər verir ki, o, 101 yaşında dünyasını dəyişib.

Qeyd edək ki, prodüser 1957-ci ildə qardaşları ilə birlikdə "The Mirish Company" film şirkətini qurub. Təşkilat ən yaxşı film nominasiyasında "Oskar" qazanan üç film - "Mənzil" (1960), "Qərb tərəfinin hekayəsi" (1961) və "Gecə yarısı istisi" (1967)) də daxil olmaqla 68 ekran işi istehsal edib. Miriş özü "Çəhrayı Pantera" və "Möhtəşəm yeddilik" kimi animasiya layihələrinin istehsalında iştirak edib.

# Ana qızını söyüş söydüyünə görə ağır cəzalandırdı



**Rusiyanın Rostov vilayətində qızına əsəbiləşən ana onu məcbur edib ki, uşaq dişlərini unitazın suyu ilə təmizləsin.**

Oxu.az xəbər verir ki, cəzanın səbəbi qızın internetdə söyüş söyməsi olub.

Ana cəza tədbirini telefona çəkib. Bir müddət sonra isə video sosial şəbəkələrdə yayılıb.

İnternet istifadəçiləri ananın cəza metodunu sərt tənqid ediblər.



# Zəlzələ qurbanları üçün meydana oyuncaqlar atıldı

**"Spor Toto" Super Liqanın "Vodafone Park"da keçirilən "Beşiktaş" - "Fraport TAV Antalyaspor" matçında tribunadan meydançaya minlərlə oyuncaq atılıb.**

İlk zəlzələnin baş verdiyi saat 4.17-yə həsr olunmuş oyun matçın 4-cü dəqiqə 17-ci saniyəsində dayanıb və "Beşiktaş"lı azarkeşlər zəlzələ bölgəsindəki uşaqlara göndərilmək üçün tribunalardan minlərlə təmtəraqlı oyuncaqları sahəyə atıblar.

Oyuncaqların atılması zamanı stadionun səsgücləndiricisindən "Bir başqadır, mənim ölkəm" mahnısı səsləndirilib, tabloda 11 vilayətin dövlət nömrə nişanlarının kodları əks olunub.

İki komandanın ehtiyat oyunçular skamyasında oturan futbolçular rəsmilərlə birlikdə meydana atılan oyuncaqları yığmağa kömək ediblər, bəzi futbolçuların emosional olduğu görülüb. Zəlzələ bölgəsi komandalarından olan "Qaziantep" FK-dan icarə əsasında "Beşiktaş"a gələn Aleksandru Maksimin gözləri yaşarıb.

Eyni zamanda ağ-qara tribunalardan "Qərbdən şərqə, bu camaat arxanızdadır! Başsağlığı veririk" yazılı pankart açılıb.

**Turan**

# Aktyor 5 illik həyat yoldaşından boşanır



**Türkiyəli məşhur cütlük Buğra Gülsoy və Nilüfer Gürbüz boşanır.**

Axşam.az xəbər verir ki, cütlük 5 illik münasibətlərini sonlandırmaq qərarı alıb. İkili apreldə qarşılıqlı razılışma ilə rəsmi şəkildə boşanmağı planlaşdırır.

Bəlli olub ki, Buğra və Nilüfer uzun müddətdir eyni evdə yaşamır və ictimaiyyət arasında birgə görünmür. Bu qərarı almalarına səbəb isə ikilinin fikir ayrılığı yaşaması olub.

*Qeyd edək ki, cütlüyün Cem adlı bir oğul övladı var.*

# "Kim milyonçu olmaq istəyir"in iştirakçısı da zəlzələdə həlak oldu



**"Kim milyonçu olmaq istəyir" yarışmasından tanınan Simay Atlı da Türkiyədə baş verən zəlzələdə həlak olub.**

Axşam.az xəbər verir ki, psixologiya fakültəsində oxuyan 21 yaşındaki Atlı Kahramanmaraşda yaşayırdı. Anası ilə birlikdə dağıntılar altında qalan Simayın cansız bədəni tapılıb.

Simay yarışmada 5 min lirə dəyərindəki dördüncü sualda yarışmanı tərk etmişdi. Onun proqramın aparıcısı Kenan İmirzalıoğlu ilə söhbəti gündəm olmuşdu.

# Növbəti sevgilisi də aktrisadır



**Aktrisa Ayça Ayşin Turan yeni eşqə yelkən açıb.**

Axşam.az xəbər verir ki, aktrisa iş adamı Umut Evirgenlə münasibətdədir.

Qeyd edək ki, Ayça bundan əvvəl "Ada masalı" serialındakı həmkarı Alp Navruzla sevgili idi. Cütlük növbəti layihədə birgə yer almaları ilə bağlı mübahisəyə görə ayrılmışdı.

Umut isə aktrisalar Farah Zeynep, Tuba Büyüküstün, Melisa Şenolsun, Serenay Sarıkaya və Dilan Çiçek Denizlə yaşadığı eşq macəraları ilə gündəmdən düşmür.

# Madonnanın küçədə yaşayan qardaşı vəfat etdi



**Dünyaca məşhur pop ifaçı Madonnanın böyük qardaşı Entoni Cerard Cikkon 66 yaşında vəfat edib.**

Axşam.az xəbər verir ki, bu barədə ifaçının bacısının həyat yoldaşı Co Henri sosial media hesabında məlumat yayıb. Onun hansı səbəbdən öldüyü açıqlanmayıb.

*Qeyd edək ki, Entoni küçədə, körpünün altında yaşayıb və spirtli içki aludəçisi olub. Madonnanın qardaşı ailəsini tənqid edib və yaxınlarını ona yardım əli uzatmamaqda günahlandırıb. Onun Madonna ilə əlaqə saxlamadığı və dəstək istəmədiyi bildirilib. 2017-ci ildə Entoni 7 il evsiz qaldıqdan sonra evə qayıtsa da, sonradan yenidən küçədə qalmağa başlayıb.*